HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 03 (643) ■ 23 yanvar 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Şəhidlərin ölməzliyi müstəqilliyimizdə, xoşbəxt gələcəyimizdə yaşayır

## Azərbaycan Prezidenti İlham Əliyev şəhidlərin əziz xatirəsini yad etmişdir

*Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumxalq Hüzn Günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişdir.*



Qanlı Yanvar hadisələrindən 23 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuş, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilmişdir. Təpədən dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdir. Düz 23 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar.

Azərbaycan xalqı hər il Ümumxalq Hüzn Günündə 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Hər il olduğu kimi, Azərbaycan Prezidenti Administrasiyası tərəfindən Qanlı Yanvar faciəsinin iyirmi üçüncü ildönümü ilə əlaqədar geniş tədbirlər planı hazırlanmış, respublikanın bütün şəhər və rayonlarında, xarici ölkələrdəki səfirliklərimizdə, diaspor təşkilatlarında anma mərasimləri keçirilmişdir. Ümumdövlət və ümumxalq ehtiramı sübut edir ki, şəhidlər ölməzdir. Bu ölməzlik müstəqilliyimizdə, birliyimizdə və xoşbəxt gələcəyimizdə yaşayır.

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəlmiş, «Əbədi məşəl» abidəsi önünə əklil qoymuşdur.

Müdafiə Nazirliyinin Əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səslənmişdir.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

# Prezident İlham Əliyev Sloveniyanın Baş naziri və ABŞ müdifiə nazirinin müşaviri ilə görüşmüşdür



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 16-da Sloveniya Respublikasının Baş naziri Yanez Yanşa ilə təkbətək görüşü olmuşdur.*

Dövlətimizin başçısı Yanez Yanşa ilə NATO-nun Çikaqo sammiti zamanı görüşünü və ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ilə bağlı apardığı müzakirələri məmnunluqla xatırlamışdır. Azərbaycan ilə Sloveniya arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu vurğulayan Prezident İlham Əliyev Yanez Yanşanın ölkəmizə səfərinin uğurlu olacağına, siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığımızın genişləndirilməsi və güclü tərəfdaşlıq əlaqələrinin qurulması işinə təkan verəcəyinə ümidvar olduğunu bildirmişdir.

Baş nazir Yanez Yanşa böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin iqtisadi əlaqələrimizin genişləndirilməsi baxımından önəmini qeyd etmiş, Bakıda təşkil olunacaq Azərbaycan-Sloveniya biznes forumu zamanı əməkdaşlığımıza dair imzalanacaq sazişlərin əhəmiyyətini vurğulamış, ikitərəfli əlaqələrimizin gələcəkdə daha da inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu qeyd etmişdir.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilmişdir.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də ABŞ müdafiə nazirinin baş müşaviri xanım Ketlin Hiksin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

Azərbaycana ilk səfərindən məmnunluğunu ifadə edən xanım Ketlin Hiks paytaxtımızın onda dərin təəssürat yaratdığını demişdir. Amerikalı qonaq Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyada iştirakının və bu missiyaya verdiyi töhfənin ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini bildirmiş və qeyd etmişdir ki, ABŞ ölkələrimiz arasında müdafiə sahəsində əlaqələri daha da genişləndirməkdə və strateji əməkdaşlıq səviyyəsinə çatdırmaqda maraqlıdır. O, bu sahədə əməkdaşlığımızın istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı qarşılıqlı fikir mübadiləsi aparılmasının önəmini vurğulamışdır.

Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluğunu ifadə edən dövlətimizin başçısı ölkələrimizin müdafiə sahəsində əməkdaşlığının uzun tarixə malik olduğunu və razılıq doğurduğunu bildirmişdir. Müdafiə sahəsində əməkdaşlığın ikitərəfli münasibətlərimizin inkişafındakı rolunu qeyd edən Prezident İlham Əliyev bu əməkdaşlığın regional və enerji təhlükəsizliyi, eləcə də sabitliyin möhkəmləndirilməsi baxımından önəmini vurğulamışdır. Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə sahəsində daha da genişləndiriləcəyinə əminliyini ifadə etmişdir.



## Azərbaycan Prezidenti İsveçrəyə işgüzar səfər etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 22-də İsveçrə Konfederasiyasına işgüzar səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola salmışlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Sürixdən Davos şəhərinə yola düşmüşdür.

## London Olimpiya Oyunlarının icraçı direktoru Prezident İlham Əliyevin qəbulunda olmuşdur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Böyük Britaniya Milli Olimpiya Komitəsinin prezidenti, London Olimpiya Oyunlarının icraçı direktoru Lord Sebastyan Koeni qəbul etmişdir. Dövlətimizin başçısı XXX London Yay Olimpiya Oyunlarının yüksək səviyyədə təşkil olunması münasibətilə Böyük Britaniya Milli Olimpiya Komitəsinin prezidenti, London Olimpiya Oyunlarının icraçı direktoru Lord Sebastyan Koeni təbrik etmiş, onun Azərbaycana bu səfərinin ölkəmizlə tanış olmaq üçün yaxşı imkan yaradacağını demişdir.

Lord Sebastyan Koen öz növbəsində Azərbaycan idmançılarının XXX London Yay Olimpiya Oyunlarında əldə etdikləri uğurlar münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırmışdır. O, səfəri zamanı Birinci Avropa Oyunlarının keçiriləcəyi idman obyektləri və eləcə də paytaxtımızla yaxından tanış olacağını vurğulamışdır.

Görüşdə ölkəmizdə idmanın bütün növlərinin inkişafı ilə bağlı görülən işlərin önəmi vurğulanmış, Azərbaycanın dünya Olimpiya hərəkatındakı rolu qeyd olunmuş, ölkəmizin beynəlxalq idman təşkilatları ilə əməkdaşlığının gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə edilmişdir.

## Əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı perspektivlər var

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Uruqvay Respublikası Prezidentinin xüsusi elçisi, Prezident Administrasiyasının dövlət katibi Diyeqo Kanepanı qəbul etmişdir.

Diyeqo Kanepa Uruqvay Respublikasının Prezidenti Xose Alberto Muxica Kordanonun şəxsi məktubunu dövlətimizin başçısına çatdırmış, Uruqvay Prezidentinin və hökumətinin Azərbaycan ilə ikitərəfli və çoxtərəfli əlaqələri inkişaf etdirmək və əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparmaq üçün ona birbaşa tapşırıqlar verdiyini demişdir. O, ölkəsinin Azərbaycan ilə müxtəlif sahələrdə əlaqələri genişləndirməkdə maraqlı olduğunu bildirmiş, bu əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı perspektivlərin olduğunu vurğulamışdır. Uruqvaylı qonaq ölkəmizə səfəri zamanı paytaxtımızda gedən yüksək inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını demişdir.

Dövlətimizin başçısı Uruqvay Respublikasının Prezidenti Xose Alberto Muxica Kordanonun şəxsi məktubuna görə minnətdarlığını bildirmişdir. Prezident İlham Əliyev müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişaf etdirilməsi baxımından rolunu qeyd etmiş, ölkələrimiz arasında güclü tərəfdaşlıq əlaqələrinin qurulacağına ümidvar olduğunu bildirmişdir.

## Azərbaycan ilə Səudiyyə Ərəbistanı dost və tərəfdaş ölkələrdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfiri Fəhd bin Əli əd-Dosərini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Fəhd bin Əli əd-Dosəri səfirlik fəaliyyəti dövründə Azərbaycanın bütün regionlarına etdiyi səfərlər zamanı Bakıda və regionlarda böyük inkişafın şahidi olduğunu vurğulamışdır. O, diplomatik fəaliyyəti müddətində ikitərəfli münasibətlərimizin bütün istiqamətlərdə, o cümlədən iqtisadi, ticarət, investisiya qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi istiqamətində mühüm işlərin görüldüyünü bildirmiş, əlaqələrimizin genişləndirilməsində qarşılıqlı investisiya qoyuluşunun önəmini qeyd etmişdir.

Dövlətimizin başçısı Fəhd bin Əli əd-Dosərinə ölkəmizdəki diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin genişləndirilməsi işinə verdiyi töhfəyə görə təşəkkürünü bildirmişdir. Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığının dost və tərəfdaş ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin bir-birilərinə bütün beynəlxalq təşkilatlarda dəstək vermələrinin önəmini qeyd etmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Səudiyyə Ərəbistanı Krallığının mövqeyini yüksək qiymətləndirən dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadi əlaqələrin bütün istiqamətlərdə inkişaf etdirilməsi üçün də geniş imkanların olduğunu demişdir. Prezident İlham Əliyev ikitərəfli əlaqələrimizin gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini bildirmişdir.

2 Vergi Məcəlləsinə dəyişiklər hər bir vətəndaşın mənafeyinə xidmət edir

3 Çevik və keyfiyyətli xidmət

4 2012-ci ilin sosial-iqtisadi yekunları açıqlandı

5 Özündən çox el qədrini bilənləri xatırlayın...

## Təkrar şikayətlər təmin edilib

*Vergi Apelyasiya Şurası fiziki şəxs Malik İbrahimov və «Müasir Ticarət Texnologiyaları» MMC-nin direktoru Fuad Cavadovun tətbiq edilmiş maliyyə sanksiyalarının ləğv edilməsi barədə təkrar şikayətlərinə baxmışdır.*

Kitab, məktəb və ofis ləvazimatlarının satışı ilə məşğul olan M.İbrahimov ona qarşı tətbiq olunmuş 800 manat maliyyə sanksiyası ilə razılaşmadığını bildirmiş və həmin məbləğin ləğv olunmasını xahiş etmişdir. Vergi Məcəlləsinin müddəalarına əsasən, vergi yoxlamaları keçirildikdə vergi orqanları düzgün qərar qəbul edilməsi üçün əhəmiyyətli olan bütün halları, o cümlədən vergi ödəyicisi üçün əlverişli olan halları aydınlaşdırmalıdır və vergi qanunvericiliyinin pozulmasında vergi ödəyicisinin təqsirli olması ilə bağlı şübhələr olduqda, məsələ ödəyicinin xeyrinə şərh edilməlidir. Bunlar nəzərə alınaraq, toplanmış əlavə sübutlar əsas götürülməklə Vergi Apelyasiya Şurası tərəfindən M.İbrahimovun təkrar şikayətinin təmin edilməsi haqqında qərar çıxarılmışdır.

«Müasir Ticarət Texnologiyaları» MMC-nin direktoru Fuad Cavadovun kameral qaydada hesablanmış 87.880,56 manat əlavə vergi məbləğinin ləğv edilməsi barədə təkrar şikayətinin araşdırılması zamanı müəyyən edilmişdir ki, müəssisədə keçirilmiş səyyar vergi yoxlamasının nəticələrinə dair akt tərtib edilmiş, lakin aktın nəticəsi üzrə yekun qərar çıxarılmamışdır. Müəssisə tərəfindən mübahisələndirilən kameral yoxlamalar 2012-ci ilin iyun, iyul, avqust aylarını əhatə etdiyi üçün səyyar vergi yoxlaması ilə həmin dövrlər əhatə olunmamışdır. Odur ki, müəssisənin vergi öhdəliklərinin dəqiq müəyyənləşdirilməsi məqsədilə MMC-də əlavə vergisi yoxlaması tədbirlərinin keçirilməsinə zərurət yarandığını nəzərə alaraq, Vergi Apelyasiya Şurası təkrar şikayətin təmin olunması və «Kameral qaydada vergilərin hesablanmasına dair bildirişlər»in ləğv edilməsi barədə qərar çıxarmışdır.

## Vergi hüquqpozmalarına qarşı mübarizə gücləndirilib

Vergilər Nazirliyi tərəfindən 2012-ci il ərzində vergi ödəməkdən yayınma, qanunsuz sahibkarlıq, yalançı sahibkarlıq, aksiz markaları ilə markalanmamış malların satılması faktları üzrə cəmi 417 cinayət işi başlanmışdır ki, bu da 2011-ci illə müqayisədə 107 iş azdır. Cinayət işlərindən 213-ü səyyar vergi yoxlamalarının nəticələri, 193-ü vergi borcunun ödənilməməsi, 6-sı aksiz markaları ilə markalanmamış malların satılması faktları ilə bağlı vergi orqanlarından, 5-i isə digər hüquq-mühafizə orqanlarından daxil olmuş materiallar üzrə başlanmışdır.

İstintaqı tamamlanmış 380 cinayət işindən külli miqdarda vergidən yayınma faktları üzrə 36, xeyli miqdarda vergidən yayınma faktları üzrə 39, qanunsuz sahibkarlıq faktları üzrə 3, külli miqdarda qanunsuz sahibkarlıq faktı üzrə 3, külli miqdarda özgə əmlakını mənimsəmə yolu ilə talama faktı üzrə 1, aksiz markaları ilə markalanmamış malların satılması faktları üzrə 5 iş olmaqla cəmi 91 nəfər barəsində 87 iş ittiham aktı ilə baxılması üçün məhkəmələrə göndərilmişdir.

Hesabat dövründə 293 işin icraatına xitam verilmiş, 18 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilmişdir. 199 iş üzrə müəssisə rəhbərləri və fiziki şəxslər yayındırdıqları vergiləri ibtidai istintaq zamanı tamamilə ödədiklərinə görə cinayət məsuliyyətindən azad edilmişlər.

Cinayət işlərinin araşdırılması zamanı dövlət büdcəsinə ödənilən vəsaitin məbləği 15 milyon 144,5 min manat olmuşdur. Hesabat dövründə 3 cinayət işi üzrə vergidən yayındırılmış vəsaitin dövlət büdcəsinə ödənilməsi məqsədi ilə təqsirləndirilən şəxslərin 3 milyon 301,70 min manat dəyərində əmlakı üzərinə həbs qoyulmuşdur.

Əməliyyat-axtarış tədbirləri nəticəsində barələrində axtarış elan edilmiş 45 nəfər tutularaq istintaqa təhvil verilmiş, istintaqdan yayınan 279 şəxsin məcburi qaydada gətirilməsi, 282 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilmişdir.

Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına kömək göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından yayınan, fəaliyyətləri barədə bəyannamə təqdim etməyən və əmlakın siyahıya alınmasına maneçilik törədən 913 vergi ödəyicisi tapılıb vergi orqanlarına təqdim edilmişdir ki, bu da 2011-ci illə müqayisədə 633 nəfər çoxdur.

# Vergi Məcəlləsinə dəyişikliklər hər bir vətəndaşın mənafeyinə xidmət edir



*Yanvarın 22-də Vergilər Nazirliyində 2012-ci ilin yekunları və 2013-cü ildə qarşıda duran vəzifələrə, eləcə də Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə həsr olunmuş mətbuat konfransı keçirilmişdir.*

### İslahatlar davam etdirilir

Vergilər nazirinin 1-ci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov media nümayəndələrinə nazirliyin 2012-ci ildəki fəaliyyətinin yekunları ilə bağlı ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, hesabat ilində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 6 mlrd. 25,4 mln. manat vəsaitin ödənilməsi təmin olunmuşdur. Bu, 2011-ci illə müqayisədə 553,5 mln. manat və ya 10,1% çoxdur. Daxil olan vergilərin 4 mlrd. 330,2 mln. manatı və ya 71,9%-i qeyri-dövlət sektorunun payına düşür. Qeyri-dövlət sektorundan vergi daxilolmalarının həcmi əvvəlki ilə nisbətən 512,6 milyon manat və ya 13,4% artmışdır. Qeyri-neft-qaz sektorundan daxilolmalar 3 mlrd. 286,5 mln. manat təşkil etməklə, 2011-ci ilə nisbətən 415,7 mln. manat və ya 14,5% artmışdır.

2012-ci ildə vergi sistemində islahatların davam etdirildiyini deyən Natiq Əmirov vergi nəzarətinin təkmilləşdirildiyini, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldildiyini vurğulamışdır. Ötən il vergi xidmətində informasiya texnologiyalarının tətbiqi və genişləndirilməsi sahəsində bir sıra yeniliklər olmuşdur. Yerli investisiyalı hüquqi şəxslərin dövlət qeydiyyatı elektron formata keçirilmiş, vergi və rüsumların elektron ödənilməsi imkanları yaradılmış, elektron xidmətlərin çeşidi artırılmışdır. Hazırda «Elektron hökumət» çərçivəsində təqdim olunan elektron xidmətlər baxımından Vergilər Nazirliyi ən çox sayda - 57 elektron xidmət göstərən dövlət orqanıdır.

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 21 dekabr 2012-ci il tarixli Azərbaycan Respublikası Qanununun qəbulunu ötən ilin mühüm hadisələrindən biri kimi dəyərləndirən nazir müavini Məcəllənin 65 maddəsinə 131 bənd üzrə 176 əlavə və dəyişikliyin edildiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, bu dəyişikliklər, əsasən, vergi ödəyicilərinin hüquqlarının müdafiəsi, vergi ödəyicilərinin mənafelərinin qorunması, vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsi ilə bağlı məsələləri əhatə edir: «Bunlar son illərdə Vergi Məcəlləsində edilmiş ən böyük dəyişikliklərdir və həmin dəyişikliklərin əsas hissəsini vergi ödəyicilərinə və vətəndaşlara müxtəlif vergi güzəştlərinin verilməsinə, sahibkarlıq mühitinin yaxşılaşdırılmasına, ölkəmizin investisiya cəlbediciliyinin artırılmasına xidmət edən tədbirlər təşkil edir».

### Dəyişikliklərin əsas istiqamətləri

Nazirliyin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərin əsas istiqamətləri və mahiyyəti barədə ətraflı məlumat vermişdir: «Vergi ödəyicilərinin hüquqlarının müdafiəsi baxımından Vergi Məcəlləsində ilk dəfə vergi partnyorluğu məsələsi öz əksini tapmışdır. Ödəyicilərin hüquqlarının müdafiəsinin təmin olunması məqsədilə edilmiş bu dəyişikliklər vergi ödəyicisinin maliyyə itkilərinin minimallaşdırılmasına imkan verəcəkdir».

Mətbuat konfransında vurğulanmışdır ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdən biri də Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə yaradılmış sənaye və texnologiyalar parklarında sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlirlərinin 7 il müddətinə gəlir vergisindən azad olunmasıdır. Bununla yanaşı, mühüm dəyişikliklər sırasında parkların idarəedici təşkilatının və operatorunun mənfəətinin parkın infrastrukturunun tikintisinə və saxlanılmasına yönəldilmiş hissəsinin müddət qoyulmadan, sənaye və texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslərin fəaliyyətindən əldə olunan gəlirlərin 7 il müddətinə mənfəət vergisindən, sənaye və texnologiyalar parklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi məqsədilə idxal edilən texnikalar, texnoloji avadanlıqlar və qurğuların ƏDV-dən, parkların idarəedici təşkilatı və operatoru, parkların rezidenti olan hüquqi və fiziki şəxslərin əmlak və torpaq vergilərindən azad edilməsi də vardır.



Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsinin 51 maddəsinə dəyişikliklər edilmişdir. Bunların sırasında nağdsız ödənişlərin aparılması zamanı vergi ödəyiciləri tərəfindən POS-terminalların quraşdırılması, vergi orqanı tərəfindən kameral yoxlama aparmaq və ya vergi bəyannaməsi, sənədlər və məlumatlar əsas olmadan təqdim edilmədikdə əlaqəli məlumatlardan istifadə etməklə vergilərin hesablanması və s. dəyişiklikləri qeyd etmək olar.

Bütövlükdə, son dəyişikliklərlə vergi güzəşt və imtiyazlarının əhəmiyyətli şəkildə artdığını vurğulayan A.Musayev bu addımın Azərbaycanda innovasiya və bilik menecmentinə əsaslanan iqtisadiyyatın qurulması istiqamətində vergi siyasətinin, eləcə də «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının vergi siyasəti nöqteyi-nəzərindən hədəf və məqsədlərinə xidmət etdiyini vurğulamışdır.

### Səyyar vergi yoxlamasını siyasiləşdirmək cəhdi yolverilməzdir

Azərbaycan Kinematoqrafçılar İttifaqının rəhbərliyinə qarşı qaldırılmış cinayət işi ilə bağlı sualı cavablandıran vergilər nazirinin birinci müavini Natiq Əmirov məsələyə aydınlıq gətirərək demişdir ki, Vergilər Nazirliyi ildə bir dəfədən tez olmamaqla təsərrüfat subyektlərində növbəti səyyar vergi yoxlamaları həyata keçirir: «Kinematoqrafçılar İttifaqında da növbəti səyyar vergi yoxlaması həyata keçirilib və yoxlamalardan 15 gün əvvəl İttifaqa müvafiq xəbərdarlıq göndərilib. Bu, ötən ilin ortalarında olub, ilin sonuna isə yoxlamalar yekunlaşıb. Bu yoxlamalar qanunvericiliyə tam uyğun şəkildə İttifaqın son 3 ildəki - 2009-2012-ci illərdəki fəaliyyətini əhatə edib. Yoxlamalar vergi ödənişlərindən yayınma faktını ortaya çıxarıb və bu barədə akt İttifaqın rəhbərliyinin məlum bəyanatından xeyli əvvəl onlara təqdim olunub. Bunu hər biriniz dəqiqləşdirə bilərsiniz. Bu məsələni siyasiləşdirmək düzgün deyil. İstintaq başa çatdıqdan sonra bu məsələ ilə bağlı son sözü məhkəmə deyəcək».

«Binə» və «Sədərək» ticarət mərkəzlərində nəzarət-kassa aparatlarının quraşdırılması ilə bağlı bir qrup sahibkarın etirazının əsassız olduğunu bildirən nazir müavini demişdir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər kəs vergiləri ödəməyə borcludur. «Binə» və «Sədərək» ticarət mərkəzlərinin sahibləri bu il ərzində hər iki mərkəzdə işləyən sahibkarların vergiləri ödəməsi ilə bağlı bütün məsələləri həll etməlidirlər: «Ötən il bu ticarət mərkəzlərinin sahibləri ilə görüşlər keçirdik və onlara məsələlərin həll edilməsi üçün əlavə vaxt verdik. Orada işləyən bəzi sahibkarlar hesab edirlər ki, onların ödəməli olduqları vergilər obyektin icarə dəyərinə daxildir. Bu, qanun baxımından düzgün deyil. Ticarət mərkəzinin sahibinə ödənilən icarə haqqı heç kimi vergi öhdəliyindən azad edə bilməz».

Mətbuat konfransında jurnalistləri maraqlandıran digər suallar da ətraflı cavablandırılmışdır.

**S.MUSTAFAYEV**

# Elektron xidmətlərdən istifadə...

*Təcrübə göstərir ki, e-xidmətlərdən daha səmərəli istifadə etmək üçün vergi ödəyicilərinin, ümumiyyətlə, vətəndaşların müntəzəm məlumatlandırılmasına ehtiyac var. Bunu nəzərə alaraq, Vergilər Nazirliyinin göstərdiyi e-xidmətlər barədə təlimat səciyyəli yazıları diqqətinizə təqdim etməyi məqsədəuyğun bildik...*

### Kommersiya hüquqi şəxsin adının unikallığının yoxlanılması

Bu xidmət yeni yaradılan kommersiya hüquqi şəxsə təsisçi tərəfindən verilən adın unikallığının yoxlanılması prosesini əhatə edir. Kommersiya hüquqi şəxsin adının unikallığının yoxlanılması prosesi real vaxt rejimində bir dəqiqə ərzində həyata keçirilir. Bu xidmətin göstərilməsi nəticəsində dövlət qeydiyyatına alınacaq kommersiya hüquqi şəxsə unikal xüsusi ad seçilir. Xidmət informativdir, xidmətdən hüquqi və fiziki şəxslər istifadə edə bilir. Ödənişsiz həyata keçirilən xidmətdən istifadə üçün heç bir sənəd tələb edilmir. Sorğunun formalaşdırılması üçün yeni yaradılacaq kommersiya hüquqi şəxs üçün seçilmiş adın xüsusi hissəsi (hüquqi şəxsin adının təşkilati-hüquqi formaya qədər olan hissəsi) böyük latın hərfləri ilə sistemə daxil edilir. Sorğunun sistemə daxil edildiyi vaxt hüquqi şəxsin adının unikal olub-olmadığı barədə məlumat ekrana çıxarılır. İstifadəçinin istəyindən asılı olaraq, ona oxşar adlı hüquqi şəxslərin adlarına baxış imkanı yaradılır. Sorğunun yenə yetirilməsindən heç bir halda imtina edilmir.

### Əlavə dəyər vergisinin

məqsədləri üçün onlayn qeydiyyat

Bu, interaktiv elektron xidmətdir və istifadəsi ödənişsizdir. Bu xidmət vergi ödəyicisi olan hüquqi və fiziki şəxslərin, qeyri-rezidentin daimi nümayəndəliyinin, filial və bölməsinin elektron formada «Əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata alınması»nı əhatə edir.

www.e-gov.az ünvanında təqdim olunan xidmətin icra müddəti istifadəçinin tələb olunan məlumatları daxil etməsindən və bunun informasiya sistemində emalı müddətindən asılıdır. Xidmətin göstərilməsi nəticəsində vergi ödəyicisinin elektron ünvanına ƏDV vergisinin məqsədləri üçün qeydiyyata alınması haqqında ərizəsinin icraya qəbul edildiyi və ƏDV məqsədləri üçün «Bildirişin vergi orqanından götürülməsi haqqında məlumat» göndərilir. Əlavə dəyər vergisinin məqsədləri üçün bildirişin kağız daşıyıcılarda alınması üçün vergi ödəyicisinin rəhbəri və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən şəxsiyyəti təsdiq edən sənədlə Vergilər Nazirliyinin müvafiq yerli vergi orqanına müraciət olunmalı və xüsusi kitabda imza edilməlidir.

Bu xidmətin istifadəçiləri Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) almış şəxslərdir. Elektron xidmətin göstərilməsi üçün xidmətin təqdim edildiyi elektron ünvandakı ərizədə olan məlumatlar interaktiv şəkildə vergi ödəyicisi tərəfindən sistemə daxil edilir. Xidmət interaktiv olduğundan, istifadəçilərin Vergilər Nazirliyi tərəfindən verilmiş şifrəsi, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda, istifadəçiyə təklif olunan ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır. Ərizə iş vaxtı başa çatdıqdan sonra və ya qeyri-iş günündə sistemə daxil edilmişdirsə, bu halda onun icrası həmin gündən sonrakı ilk iş gününün əvvəlində həyata keçirilir.

Sorğunun formalaşdırılması üçün vergi ödəyicisinin «Əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata alınması haqqında ərizəsi» İnternet Vergi İdarəsi Portalının «onlayn kargüzarlıq» bölümü üzərindən aparılır. «ƏDV-nin qeydiyyatı ərizəsi»ni işləmək üçün «Yeni müraciət» düyməsi sıxılır və açılan pəncərədə: «Kimə» siyahısından - Vergilər Nazirliyi, «Müraciətin növü» siyahısından - Ərizə, «Sənədin növü» siyahısından - ƏDV qeydiyyatı ərizəsi seçilir və Qəbul düyməsi sıxılır. Açılan ekranda ilk olaraq qeydiyyat növü seçilir, qüvvəyəminmə tarixi daxil edilir, İrəli düyməsi sıxılır. Bundan sonra monitora daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir. İstifadəçi məlumatların doğruluğuna əmin olduqda, onu təsdiqləmək üçün Qəbul düyməsini basır. Əks halda, imtina etmək üçün İmtina düyməsi sıxılır. Təsdiqdən sonra ekrana ƏDV məqsədləri üçün qeydiyyata alınma haqqında ərizənin qəbul edildiyi barədə Bildiriş çıxır. Ödəyici tərəfindən göndərilən elektron ərizə onun «Göndərdiklərim» qovluğuna düşür. O, buradan Əməliyyat tarixçəsi vasitəsilə ərizəsinin Vergilər Nazirliyində icra vəziyyətini izləyə bilər. Ərizə məlumatları sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16-rəqəmli qeydiyyat nömrəsi verilir.

Vergi ödəyicisinin ƏDV məqsədləri üçün e-qeydiyyatından iki halda: elektron qeydiyyat anında onun ƏDV ödəyicisi olduğu və ƏDV-nin qüvvəyəminmə tarixinin vergi ödəyicisinin qeydiyyat tarixindən əvvəlki tarix olduğu hallarda imtina edilir. İmtinaya əsas olmadıqda ərizə qəbul edilir.

**AYTƏN**

# «İnformasiya-kommunikasiya texnologiyaları ili»nin əsas hədəfləri

*Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, 2013-cü il Azərbaycanda «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilib. İl ərzində hökumətə sistemli tədbirlərin gücləndirilməsi, ölkəmizin ümumdünya elektron məkanına daha sürətli inteqrasiya edilməsi, «elektron hökumət»lə bağlı islahatların miqyasının genişləndirilməsi, biliklərə əsaslanan iqtisadiyyatın təşəkkülü, informasiya təhlükəsizliyinin gücləndirilməsi, ən qabaqcıl texnologiyaların vətəndaşların gündəlik həyatının müxtəlif sahələrində tətbiqi ilə bağlı zəruri işlərin görülməsi tapşırılıb.*

*Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov «İKT ili» çərçivəsində görüləcək işlərin istiqamətlərini açıqlayıb.*

**Azərbaycanın ilk süni peykinin orbitə çıxarılması**

ABŞ-ın «Orbital» şirkətinin istehsalı olan ilk süni peykimiz Fransanın «Arian» şirkəti tərəfindən fevralın birinci ongünlüyündə orbitə çıxarılacaq. Peykin idarə olunması üçün regional idarəetmə mərkəzinin və ehtiyat idarəetmə mərkəzinin yaradılması başa çatıb. Mərkəz Azərbaycanla yanaşı, region üzərindən uçan digər ölkələrə məxsus peyklərin də idarə olunması üçün istifadə olunacaq. Peyk resurslarının 20%-i ölkəmizin yerli tələbatını ödəmək üçün istifadə ediləcək, 80%-i isə dünya bazarlarına ixrac olunacaq. İkinci telekommunikasiya peykinin 2016-cı ildə orbitə çıxarılacağı bildirilir.

**«Evlərə optika» modeli**

Nəzərdə tutulan ikinci hədəf ölkədə genişzolaqlı internet şəbəkəsinin qurulmasını təmin edən layihənin həyata keçirilməsidir. Bunun üçün Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) Dövlət Neft Fondu (DNF) ilə birgə tədbirlər görəcək: DNF layihənin maliyyə məsələlərini həll edəcək, RİTN isə bütün texniki vasitələrin təmin olunmasını yerinə yetirəcək. «Evlərə optika» modeli adlanan bu layihə çərçivəsində ölkənin bütün yaşayış məntəqələrinin yüksək sürətli genişzolaqlı internet xidmətlərinə çıxışının təmin olunması başlıca məqsədlərdəndir. Layihəyə əsasən, genişzolaqlı optik şəbəkənin qurulması üçün 2013-cü ildə 103 milyon manat vəsait sərf olunacaq. «İKT ili»ndə start götürən layihə üç il müddətində nəzərdə tutulub. 2015-ci ilin sonuna kimi respublikanın bütün bölgələrində, ən ucqar kəndlərində belə, sürətli internetin təmin edilməsi mümkün olacaq. 3 ildən sonra bütün ölkə üzrə internetin sürəti 10-100 meqabit-saniyəyə catacaq.

**Rəqəmsal yayıma keçidin tam başa çatdırılması**

Azərbaycan - Cənubi Qafqaz, Orta və Mərkəzi Asiya dövlətləri arasında rəqəmsal yayıma başlayan ilk ölkədir. İki il ərzində Bakı şəhərinin tamamilə rəqəmsal yayıma keçidi təmin olunub. Ümumilikdə ölkə əhalisinin 90%-nin bu yayım texnologiyasından faydalanmaq imkanı var. Rəqəmsal yayıma keçid 2013-cü ildə tam başa çatdırılacaq.

**«Elektron hökumət»**

«İKT ili» çərçivəsində dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi məqsədilə informasiya və kommunikasiya texnologiyalarından istifadənin tətbiqinin genişləndirilməsi tədbirləri sürətləndiriləcək. 2013-cü ildə «e-hökumət»lə bağlı işlərin miqyası daha da genişləndiriləcək, bu sistemə inteqrasiya olunan dövlət orqanlarının, onların göstərdikləri elektron xidmətlərin sayı artırılacaq.

**İKT Fondunun fəaliyyətə başlaması**

İKT-nin daha sürətli inkişafı üçün ötən ilin sonlarında yaradılmış İKT-nin İnkişafı Dövlət Fondunun 2013-cü ildə layihələrin icrasına başlaması da əsas iqtisadi hadisələrdən olacaq. Fond, ilk növbədə, yeni innovativ layihələrin reallaşması üçün yüksək biliklərə malik mütəxəssislərə üstünlük verəcək. Fondun əsas fəaliyyət istiqamətlərini kadr potensialının gücləndirilməsi, xarici mütəxəssislərlə birgə araşdırmaların aparılması, güclü idarəetmə bazasının yaradılması, intellektual biznesin inkişafı təşkil edəcək.

**İnformasiya təhlükəsizliyi strategiyası**

RİTN 2013-cü ildə respublikamızın milli təhlükəsizliyinin təmin olunması, informasiya resurslarının qorunması, kiberhücumların qarşısının alınması, dövlət idarələrinin elektron xidmətlər sisteminin təhlükəsizliyinin mühafizəsi kimi çoxplanlı fəaliyyəti də gücləndirməyi qarşıya məqsəd qoyub. Milli informasiya təhlükəsizliyi və kibertəhlükələrə qarşı güclü sistemin təşkili məqsədilə ötən ilin sonlarında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi yaradılmışdır. Agentlik dövlət orqanları üçün xüsusi dövlət rabitəsinin, xüsusi təyinatlı informasiya-telekommunikasiya sistemlərinin və şəbəkələrinin, dövlət orqanlarının internet şəbəkəsi ilə əlaqəsinin, onların internet informasiya resurslarının məlumat və resurs mərkəzində yerləşdirilməsinin təşkilini, təhlükəsizliyini və inkişafını təmin edən tədbirlər həyata keçirəcək.

**İKT məhsullarının ixracı**

Yeni innovativ layihələrin çevikliyini həyata keçirmək, investisiya mühitini yaxşılaşdırmaq, investorların maraqlarını təmin etmək, birgə layihələrdə iştirak üçün imkan yaratmaq ixrac strategiyasının əsas prioritetlərini təşkil edəcək. Bu məqsədlə yüksək texnoloji məhsul istehsalı, İKT məhsullarının ixrac potensialının artırılması, bu sahədə müxtəlif təşviqedici tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. RİTN güclü İKT şəbəkəsini genişləndirmək üçün bu sahəyə investorların cəlb edilməsinə dəstəyin gücləndirilməsi, investisiyaların artırılması, daha əlverişli biznes mühitinin təmin edilməsini iqtisadi stimullaşdırma vasitələrinin əsas istiqamətlərindən hesab edir. Bu sektora fiskal və monetar güzəştlərin tətbiq olunması istisna edilmir.

**Elbrus CƏFƏRLİ**

## Etik davranış tələbləri diqqət mərkəzindədir

Vergilər Nazirliyi öz əməkdaşlarının etik davranış qaydalarına əməl etmələrinə, vergi ödəyicilərinin və vətəndaşların bu məsələ ilə bağlı müraciətlərinin araşdırılmasına xüsusi diqqət yetirir. 2012-ci il ərzində Vergilər Nazirliyinə «Vergi işçisinin etik davranış kodeksi»nin tələblərinin pozulması ilə əlaqədar cəmi 38 şikayət daxil olmuşdur. Aparılmış müvafiq araşdırmaların nəticəsi olaraq, kodeksin tələblərini pozmuş 8 əməkdaşın vergi orqanlarında xidmətinə xitam verilmiş, 1 əməkdaş aşağı vəzifəyə keçirilmiş, 6 əməkdaşa töhmət verilmiş, 2 əməkdaşa xəbərdarlıq elan edilmişdir. 2012-ci il ərzində bu sahədə bilik və məlumatlılıq səviyyəsinin artırılması məqsədilə vergi xidməti əməkdaşları korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri mövzusunda treninqlərə cəlb edilmişdir.

# Çevik və keyfiyyətli xidmət

## *Yanvarın 15-dən 1 nömrəli «ASAN xidmət» Mərkəzi vətəndaşlara xidmət göstərməyə başladı*

*Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Beynəlxalq və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Azad Cəfərli bildirmişdir ki, ölkədə «ASAN xidmət» mərkəzləri dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edəcək.*

Pilot layihə çərçivəsində ilkin olaraq «ASAN xidmət» Mərkəzi paytaxtın Nəsimi və Nərimanov rayonlarının sakinlərinə xidmət göstərir. Azad Cəfərlinin sözlərinə görə, yaxın zamanlarda qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlar Mərkəzin xidmətlərindən istifadə edə biləcəklər. Bakı, Gəncə və Sumqayıtda yeni «Asan xidmət» mərkəzlərinin açılması nəzərdə tutulur və tədricən mərkəzlər bütün ölkə ərazisini əhatə edəcək. Hələlik 1 saylı «ASAN xidmət» Mərkəzində 9 dövlət orqanı - Ədliyyə, Daxili İşlər, Vergilər nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Sosial Müdafiə Fondu və Milli Arxiv İdarəsi tərəfindən 23 hüquqi xidmət göstərilir. Yaxın gələcəkdə ölkədəki bütün dövlət qurumlarının xidmətlərinin bir mərkəzdə cəmlənməsinə nail olunacaq.

Vətəndaşların maarifləndirilməsi və məlumatlandırılması məqsədilə xidmətin artıq facebook və veb səhifələri də istifadəyə verilmişdir. Vətəndaşlar bunların köməyi ilə Mərkəzin fəaliyyəti, göstərdiyi xidmətlər ilə ətraflı tanış ola və müraciətlərini edə bilərlər.

**«ASAN xidmət»dən istifadə...**

Vətəndaş Mərkəzin xidmətindən istifadə edərkən ilkin olaraq məlumat köşkündən əldə etmək istədiyi sənəd üçün hansı şöbəyə və hansı sənədlərlə müraciət etməli olduğunu öyrənir. Burada xidmət göstərən əməkdaşlar vətəndaşları yararlanmaq istədikləri xidmət üzrə ətraflı məlumatlandırırlar.

Vətəndaş ətraflı məlumatlandırıldıqdan sonra Mərkəzdə xüsusi olaraq quraşdırılmış avadanlığa yaxınlaşaraq elektron formada qeydiyyata durur. Bunun üçün o, şəxsiyyət vəsiqəsini avadanlığa daxil edərək istifadə etmək istədiyi xidməti seçir, üzərində sıra və xidmət pəncərəsinin nömrəsi əks olunan bilet alır. Qeyd edək ki, vətəndaş öz növbəsini Mərkəzdə quraşdırılmış elektron monitorlar vasitəsilə də izləyə bilər. Mərkəzdə xidmətlər müvafiq hərflərlə kodlaşdırılmışdır. Məsələn, vətəndaş şəxsiyyəti təsdiq edən sənədi avadanlığa daxil etdikdə monitorda A 003 01 rəqəmləri əks olunur. Bu o deməkdir ki, vətəndaş sürücülük vəsiqəsi üzrə növbədə 3-cüdür və 1-ci xidmət pəncərəsinə yaxınlaşmalıdır. Beləliklə, vətəndaş elektron qeydiyyata durduqdan sonra gözləmə zalında növbəsini gözləyir.

**«Çağrı» mərkəzi**

Azad Cəfərli qeyd edir ki, vətəndaşlar Mərkəzin xidmətlərindən telefon və ya internet vasitəsilə ünvanladığı müraciətlər əsasında istifadə edə biləcəklər. Mərkəzə gəlmədən, internet (www.asan.gov.az saytının «Onlayn növbə» bölməsindən) və ya telefon vasitəsilə (108 - «Çağrı» mərkəzi) də növbə tutmaq imkanı olacaq. Vətəndaşları dövlət orqanlarının göstərdikləri xidmətlər və bu xidmətlər üçün tələb olunan sənədlər barədə məlumatlandırma, habelə Agentliyin şikayət və təklifləri qəbul etmə funksiyalarını yerinə yetirəcək «Çağrı» mərkəzi isə fevralın 1-dən tam fəaliyyət göstərəcək: «Hazırlıq prosesi ərəfəsində bu sahədə bir sıra dövlət qurumlarının, o cümlədən Vergilər Nazirliyinin təcrübəsi ətraflı öyrənilmiş və təhlil olunmuşdur. Əldə edilən məlumatlar müvafiq sistemin qurulmasında və bu sahədə bilgilərimizin zənginləşməsində yardımçı olmuşdur».

Mərkəzdə qanunvericiliklə nəzərdə tutulan sənədlərdən və rüsumlardan əlavə digər sənəd və ya məbləğin tələb olunması istisna edilir. Vətəndaş istifadə etmək istədiyi xidmətlər üzrə rüsumların məbləğini xüsusi quraşdırılmış tablolar vasitəsilə öyrənə bilir. Ödənişlərin həyata keçirilməsi üçün isə Mərkəzdə bank şöbələri, pay-pointlər və bankomat aparatları fəaliyyət göstərir.

**Davamı 5-ci səhifədə**






Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

Rakurs

## Sosial təyinatlı vergi güzəştləri

«Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında» 1 yanvar 2013-cü il tarixdən qüvvəyə minmiş Qanununa əsasən əlillərin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi və sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edilmişdir. Bu, ilk növbədə, vergi siyasətinin sosial funksiyasının tətbiqi ilə bağlı tədbirlərin görülməsindən irəli gəlir.

*Ölkə başçısı Prezident İlham Əliyevin imzaladığı qanuna daxil edilmiş güzəşt və imtiyazlar nəticəsində vergi ödəyicilərinin və vətəndaşların sərəncamında qalacaq vəsait onların sosial məsələlərinin həllinə əhəmiyyətli dəstək olacaqdır.*

Bütün dünyada dövlət idarəçiliyində vergilər üç əsas funksiyanı - fiskal, sosial və tənzimləyici funksiyaları yerinə yetirir.

Vergilərin sosial funksiyası cəmiyyətin ayrı-ayrı sosial qruplarının gəlirləri arasındakı nisbəti dəyişdirilməklə onlar arasındakı bərabərsizliyin minimuma endirilməsini nəzərdə tutur.

Müasir dövrdə sahibkarla işçilər arasındakı münasibətlərin, o cümlədən əməyin ödənilməsi məsələlərinin sərbəst şəkildə həll edilməsi ilə əlaqədar fəaliyyət növündən və sahəsindən asılı olaraq, əhalinin yüksək və az gəlirli təbəqələrinin formalaşması bazar iqtisadiyyatına xas olan faktorlardandır. Bu proseslərin sürətləndiyi bir şəraitdə əhalinin aztəminatlı təbəqələrinin dövlət tənzimləmələrinə, o cümlədən vergilərin sosial funksiyasının tətbiqinə ehtiyacı artmış olur. Bu səbəbdən, sosial yönümlü vergi güzəştlərinin və azadolmalarının verilməsi sosial tənzimləmə məsələlərində istifadə edilən alət kimi xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq təcrübədə sosial yönümlü vergi güzəştləri əsasən əlillər, veteranlar, məcburi köçkünlər, dövlət və cəmiyyət qarşısında xüsusi xidmətləri olmuş şəxslər, çoxuşaqlı ailələr və s. bu kimi kateqoriyadan olan fiziki şəxslər üçün nəzərdə tutulur. Belə güzəştlərin verilməsi, təbii ki, dövlət büdcəsində vergi daxilolmalarının azalmasına gətirib çıxarır. Bununla yanaşı, büdcənin bu qəbildən olan itkilərini mahiyyətcə əhalinin aztəminatlı təbəqələri üçün dövlətin çəkməli olduğu sosial xərclər kimi də qiymətləndirmək olar. Sosial yönümlü vergi güzəştləri ilə dövlət milli gəlirin yenidən bölüşdürülməsini və cəmiyyətdə sosial sabitliyin qorunmasını təmin edir.

Müstəqil Azərbaycanın vergi sistemi yarandığı ilk dövrdən başlayaraq əhalinin aztəminatlı kateqoriyalarının sosial müdafiəsi və maddi təminatının yaxşılaşdırılması məqsədləri üçün sosial yönümlü vergi güzəştlərinin tətbiqinə başlanılmışdır.

Sosial yönümlü vergi güzəştləri 1 yanvar 2001-ci ildən tətbiq olunan Vergi Məcəlləsində də xüsusi yer tutmuşdur. Vergi siyasətinin sosial funksiyasının təmin olunması üçün Məcəllədə az məbləğdə olan gəlirlər üçün aşağı vergi dərəcəsi müəyyən edilmiş və əhalinin bəzi kateqoriyaları üçün gəlir vergisi üzrə güzəştlər və azadolmalar nəzərdə tutulmuşdur.

Məcəllənin 102-ci maddəsində dövlət təqaüdlərinin, dövlət pensiyalarının, fiziki şəxslərin kompensasiya xarakterli gəlirlərinin gəlir vergisindən azad olunması ilə yanaşı, müharibə veteranlarının, milli qəhrəmanların, əlillərin, məcburi köçkün və qaçqınların, himayəsində azı üç nəfər olan fiziki şəxslərin muzdlu işlə əlaqədar gəlirləri üzrə vergidən azadolmalar da müəyyən olunmuşdur. Eyni zamanda, aylıq və illik gəlirləri müvafiq olaraq 200 manat və 2400 manatdan çox olmayan fiziki şəxslər üçün xüsusi güzəşt nəzərdə tutulmuşdur.

Onu da qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatının inkişafı nəticəsində büdcə gəlirləri artdıqca sosial yönümlü güzəştlərin təkmilləşdirilməsi, o cümlədən artırılması məsələləri həmişə diqqət mərkəzində olmuşdur.

Əlillərin, məcburi köçkün və qaçqınların, himayəsində azı üç nəfər olan fiziki şəxslərin, habelə aylıq gəlirləri 200 manatdan (illik gəliri 2400 manatdan) çox olmayan fiziki şəxslərin maddi və sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə 1 yanvar 2013-cü il tarixdən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, vergidən azad olunan məbləğlər artırılmışdır. Məcəllənin 102.3-cü maddəsində nəzərdə tutulan şəxslərin muzdlu işdən aylıq gəlirinin vergi tutulmayan məbləği 100 manatdan 200 manata, 102.4-cü maddəsində göstərilən şəxslər üçün 55 manatdan 100 manata, himayəsində azı 3 nəfər olan şəxslər üçün 20 manatdan 50 manata, aylıq gəliri 200 manatadək (illik gəliri 2400 manatadək) olan şəxslərə verilən güzəştin məbləği 93,5 manatdan 125 manata artırılmışdır. Eyni zamanda, I-II qrup müharibə əlillərinin muzdlu işlə əlaqədar aylıq gəlirlərinin 400 manatının vergidən azad olunması barədə güzəşt hüququ bütün qruplardan olan müharibə əlillərinə də şamil edilmişdir. Bunlardan əlavə, fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsi 30%-dən 25%-ə endirilmiş, aylıq və illik gəlirlərin 14% dərəcə ilə vergiyə cəlb edilən məbləğləri müvafiq olaraq 2000 manatdan 2500 manatadək və 24000 manatdan 30000 manata qədər qaldırılmışdır.



Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

## Vəsaitlərin dövlət büdcəsinə alınması

*Vergi öhdəliyimi qanunvericiliklə müəyyən edilmiş müddətdə yerinə yetirə bilmədiyimə görə vergi orqanı tərəfindən mənim bank hesablarımda olan vəsaitlərin dövlət büdcəsinə alınması üçün hansı hallarda sərəncam verilir?*

Vergi Məcəlləsinin (VM) 65.1-ci maddəsində qeyd edilmişdir ki, vergi ödəyicisi vergi öhdəliyini VM ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə vergi orqanı hesablanmış və ya yenidən hesablanmış vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının 5 gün müddətində ödənilməsinə dair vergi ödəyicisinə bildiriş göndərir.

VM-in 65.2-ci maddəsinə əsasən, 65.2.1.1-ci və 65.2.1.4-cü maddələrdə nəzərdə tutulan hallar istisna olmaqla, digər hallarda vergi orqanının hesabladığı və ya yenidən hesabladığı vergilər, faizlər və ya tətbiq etdiyi maliyyə sanksiyaları üzrə vergi orqanı vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında borc məbləğinin 105%-i həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra sənədi olan sərəncam verir.

VM-in 65.2.1.-ci maddəsinə görə, vergi orqanı aşağıdakı hallarda vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcların vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə alınması haqqında kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra (ödəniş) sənədi olan sərəncam verir:

1) VM-in 65.2.1.1-ci maddəsinə əsasən vergi ödəyicisi tərəfindən hesablanmış və bəyan edilmiş vergilər 65.1-ci nəzərə alınmaqla müəyyən edilmiş müddətdə ödənilmədikdə;

2) VM-in 65.2.1.2-ci maddəsinə əsasən vergi orqanının hesabladığı vergilər, faizlər və tətbiq etdiyi maliyyə sanksiyaları üzrə vergi ödəyicisi tərəfindən 65.1-ci maddədə göstərilən bildirişin alındığı tarixdən 30 təqvim günü müddətində məhkəməyə şikayət verilmədikdə;

3) VM-in 65.2.1.3-cü maddəsinə əsasən məhkəmənin müvafiq qərarı olduqda həmin qərara uyğun olaraq;

4) VM-in 65.2.1.4-cü maddəsinə əsasən vergi ödəyicisinin yazılı razılığı olduqda.

VM-in 65.2.2-ci maddəsində qeyd edilmişdir ki, vergi orqanının hesablamaları üzrə vergi ödəyicisi tərəfindən 65.1-ci maddədə göstərilən bildirişin alındığı tarixdən 30 təqvim günü müddətində məhkəməyə şikayət verildikdə kredit təşkilatı və ya bank əməliyyatları aparan şəxs məhkəmənin qanuni qüvvəyə minmiş qərarına uyğun olaraq və VM-in maddəyə əsasən verilmiş sərəncamın icrasını təmin edir.

VM-in 65.2.3-cü maddəsinə əsasən, vergi orqanı vergi ödəyicisinin ƏDV depoziti hesabından yalnız ƏDV üzrə vergi borclarının dövlət büdcəsinə alınmasını təmin edir. Depozit hesabında vergi ödəyicisinin kifayət qədər vəsaiti olmadıqda, ƏDV üzrə vergi borclarının dövlət büdcəsinə alınması üçün həmin şəxsin digər hesablarına bu Məcəllədə nəzərdə tutulmuş qaydada sərəncam verilə bilər.

VM-in 65.3-cü maddəsinə müvafiq olaraq vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən həmin sərəncamın daxil olduğu gün icra edilir.

VM-in 65.8-ci maddəsində qeyd edilmişdir ki, vergi orqanının vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması haqqında sərəncamı bir neçə bank və ya kredit təşkilatına verildikdə və bu zaman vergilər üzrə borclar, faizlər və maliyyə sanksiyaları vergi ödəyicisinin hər hansı milli və ya xarici valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə alındıqda və ya dondurulduqda, vergi orqanı digər banklara və ya kredit təşkilatlarına verilən sərəncamların dərhal geri qaytarılmasını təmin edir.

Vergi orqanının sərəncamı geri qaytarılana qədər kredit təşkilatları və ya bank əməliyyatları aparan şəxslər vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınmasını (ödənilməsini) təsdiq edən sənəd əsasında alınmış (ödənilmiş) həmin məbləğ həcmində vergi ödəyicisinin vəsaitini hesabda dondurmaqla, belə vəsaitlər üzrə sərəncamın icrasını dayandırır.

# Sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı artır

*Vergilər Nazirliyi tərəfindən hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi ölkənin biznes mühitinə müsbət təsir göstərir*

*2012-ci ildə də makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və regionların inkişafı ilə bağlı Dövlət proqramlarının həyata keçirilməsi yeni müəssisələrin yaradılmasına, yeni iş yerlərinin açılmasına, vergi daxilolmalarının çoxalmasına münbit zəmin yaratmışdır. Dövlət Statistika Komitəsinin məlumatlarına görə, özəl bölmənin inkişafı üçün yaradılmış azad rəqabət və əlverişli investisiya mühiti 2012-ci ildə ölkədə 5417 hüquqi şəxsin qeydiyyatdan keçməsi ilə nəticələnmişdir. Onlardan 154-ü dövlət mülkiyyətinə, 4653-ü xüsusi mülkiyyətə, 483-ü tam xarici investisiyalı müəssisələrə, 124-ü birgə müəssisələrə, 3-ü isə bələdiyyə mülkiyyətinə aiddir. Yeni yaradılmış hər beş müəssisədən üçü Bakıda, 12,7%-i Aran, 7,2%-i Abşeron, 5,7%-i Gəncə-Qazax iqtisadi rayonlarında, qalanları isə digər bölgələrdədir.*

Vergilər Nazirliyinin məlumatına əsasən, 2012-ci ildə 66957 fiziki şəxs sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmişdir. Müqayisə üçün qeyd edək ki, 2011-ci ildə bu rəqəm 62925 olmuşdu.

Yeri gəlmişkən, Azərbaycanda fiziki şəxslərin vergi uçotu, hüquqi şəxslərin isə dövlət qeydiyyatı Vergilər Nazirliyi tərəfindən elektron qaydada həyata keçirilir və bu, vətəndaşların sahibkarlıq fəaliyyətinə başlamasını xeyli asanlaşdırır. Fiziki şəxslərin elektron qaydada qeydiyyata alınması həyata keçirildikdən sonra ötən ilin əvvəlindən hüquqi şəxslərin də elektron qeydiyyatına başlandı. Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz həyata keçirilir. Artıq yeni müəssisə yaratmaq istəyən sahibkarlar qeydiyyat prosesinə 3 gün deyil, cəmi bir neçə dəqiqə vaxt sərf edirlər.

Sahibkarlığa göstərilən dövlət qayğısı nəticəsində iş adamlarının maliyyə təminatı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Ölkəmizdə istehsal müəssisələrinin sayının artımına müsbət təsir göstərən amillərdən biri də güzəştli kreditlərin həcminin artırılmasıdır. İqtisadi İnkişaf Nazirliyindən verilən məlumata görə, ötən il ərzində Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2400 sahibkara 218 milyon manat güzəştli kredit verilmişdir ki, bunun da 128 milyon manatı və ya təqribən 60%-i qaytarılan vəsaitlər hesabınadır. Kreditlərin 68%-i aqrar sektorun, 32% isə sənaye və turizmin inkişafına yönəldilmişdir. Bu kreditlər hesabına 9 mindən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Bakı və onun qəsəbələri üzrə müvafiq Dövlət Proqramının qəbulundan ötən dövr ərzində 400 investisiya layihəsinin maliyyələşdirilməsinə 72 milyon manat güzəştli kredit verilmişdir. Bütün bunların nəticəsində ötən il ərzində regionlarda 410-dan çox sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisəsi fəaliyyətə başlamışdır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin son iclasında sahibkarlığa dövlət dəstəyinin bundan sonra da gücləndiriləcəyini və qarşıdakı illərdə yeni müəssisələrin sayının artacağını vurğulamışdır. Ölkə başçısının yeni yaradılan müəssisələrin açılışlarında şəxsən iştirak etməsi isə iş adamlarını daha da həvəsləndirir. Ötən il ərzində Prezident İlham Əliyev yeni yaradılan 250-dək müxtəlif təyinatlı obyektlərlə şəxsən tanış olmuşdur.

**Rəşad SADIQOV**

# 2012-ci ilin sosial-iqtisadi yekunları açıqlandı

*Yanvarın 18-də Dövlət Statistika Komitəsində kütləvi informasiya vasitələrinin nümayəndələri üçün ötən ilin yekunlarına dair mətbuat konfransı keçirilmişdir*

Komitə sədri Arif Vəliyev qeyd etmişdir ki, hesabat dövründə əsas diqqət ölkə təcrübəsinin beynəlxalq səviyyədə yayılmasına, rəsmi statistikanın rolunun artırılmasına , ölkə səviyyəsində istifadəçilərin məlumatlarla təmin olunması işinin gücləndirilməsinə, respondentlərə düşən statistik yükün azadılmasına və statistik məlumatların keyfiyyətinin daha da yüksəldilməsinə yönəlmişdir. «2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı» çərçivəsində son bir ildə 30, ümumilikdə isə 5 il ərzində 200 iş yerinə yetirilmişdir. Müvafiq proqram sistemi hazırlanmış, mərkəzləşmiş şəkildə təqdim edilən hesabatlardan başqa, bütün statistik hesabatların elektron sənəd formasında təqdim olunması imkanları yaradılmışdır. 1 yanvar 2013-cü il vəziyyətinə orta və iri sahibkarlıq subyektlərinin, demək olar ki, hamısı, kiçik sahibkarlıq subyektlərinin isə hər ikisindən biri aylıq hesabatları elektron qaydada, yerli statistika orqanlarına gəlmədən təqdim etmişlər. Rəsmi statistika hesabatlarının elektron sənəd formasında toplanmasına görə Dövlət Statistika Komitəsi MDB ölkələri arasında birinci yeri tutur.

Ümumi Daxili Məhsulun strukturu 2012-ci il *(faizlə)*




### 2012-ci ilin əsas statistik göstəriciləri

***Ümumi daxili məhsul.*** Ölkənin inkişafını xarakterizə edən əsas makro göstərici - ümumi daxili məhsul (ÜDM) istehsalı 2,2% və ya 1,1 mlrd. manat artaraq 54 mlrd. manata çatmışdır. ÜDM-in 50%-i sənaye sahələrində, 5,2%-i kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında, 5,5%-i nəqliyyatda, 1,7%-i rabitədə, 13,8%-i digər xidmətlər və sosial sahələrdə yaradılmış, 6,2%-i məhsula və idxala xalis vergilərin payına düşmüşdür. Qeyri-neft sektorunda ÜDM istehsalı 9,7% artmış, neft-qaz sektorunda isə 5,0% azalmışdır. Hər nəfərə 5 min 884,5 manatlıq əlavə dəyər istehsal olunmuş və bu göstərici 0,8% artmışdır.

***Büdcə.*** Maliyyə Nazirliyinin ilkin məlumatlarına əsasən, 2012-ci ilin yanvar-noyabr aylarında dövlət büdcəsinə 15,7 mlrd. manat vəsait daxil olmuş, büdcədən 13,9 mlrd. manat vəsait xərclənmişdir. Büdcə xərclərinin 42,8%-i, yaxud 6 mlrd. manatı iqtisadiyyatın inkişafına, 1,1%-i (7,8 mlrd. manat) təhsilə, 11,5%-i (1,6 mlrd. manat) sosial müdafiə və sosial təminata yönəldilmişdir. Büdcənin gəlirləri ilə xərcləri arasında yaranmış 1,7 mlrd. manat məbləğində profisit ÜDM-də 3,6% təşkil etmişdir.

***Əhalinin gəlirləri.*** Ötən il əhalinin gəlirləri əvvəlki illə müqayisədə 13,8% artaraq 34,7 mlrd. manata, adambaşına düşən məbləği isə 12,2% artaraq 3 min 784,3 manata çatmışdır. Gəlirlərin 61%-i son istehlaka, 8,6%-i vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, 29,3%-i isə əmanətlərin və kapitalın artırılmasına sərf olunmuşdur.

***Əməkhaqqı.*** Ölkənin iqtisadi və sosial sahələrində muzdla işləyənlərin orta aylıq əməkhaqqı 2011-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 9,1% çoxalaraq 391,4 manat təşkil etmişdir. İqtisadiyyatın ayrı-ayrı sahələrində işləyənlərin orta aylıq əməkhaqqı daha yüksək olmuş və sənayedə 598 manat, tikinti kompleksində 574,3 manat, nəqliyyat işçilərinin əməkhaqqı 499,3 manat, informasiya və rabitədə 620,7 manat təşkil etmişdir.

***Xarici ticarət.*** Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, yanvar-noyabr ayları ərzində ölkənin xarici ticarət dövriyyəsi 30,5 mlrd. dollar təşkil etmişdir. Əmtəə dövriyyəsinin 72,3%-ni və ya 22,1 mlrd. dollarını ölkədən ixrac olunmuş mallar, 27,7%-ni (8,4 mlrd. dollar) isə idxal məhsulları təşkil etmiş, 13,7 mlrd. dollar məbləğində müsbət saldo yaranmışdır.

Xarici ticarət əməliyyatları İtaliya, ABŞ, Rusiya, Türkiyə, İsrail, Fransa, İndoneziya, Hindistan, Almaniya, Bolqarıstan, Ukrayna, Malayziya dövlətləri ilə daha intensiv olmuşdur.

***Ticarət və pullu xidmət.*** 2012-ci ildə əhaliyə 17,6 mlrd. manatlıq istehlak malları satılmış və 9,6% artmış, pullu xidmətlərin həcmi isə 8% artaraq 5,8 mlrd. manata çatmışdır. İstehlak bazarından alınmış məhsulların 55,4%-ni ərzaq məhsulları, 44,6%-ni qeyri-ərzq malları təşkil etmiş, ərzaq məhsullarının satışı 2,1%, qeyri-ərzaq mallarının satışı isə 20,7% artmışdır.

2012-ci ildə ölkənin hər bir sakini ticarət şəbəkəsindən orta hesabla 1902 manatlıq və ya əvvəlki illə müqayisədə 158,7 manat çox müxtəlif istehlak malları almışlar.

***Sənaye.*** 2012-ci ildə 33,9 mlrd. manatlıq məhsul istehsal olunmuşdur. Sənaye məhsulu istehsalı qeyri-neft bölməsində 7,8% artmış, neft-qaz sektorunda isə 4,2% azalmışdır.

**Arzu İBRAHİMOVA**

Əsas kapitala yönəldilmiş vəsaitlərin sahə strukturu *(faizlə)*




# Azərbaycan Avropanın istiqraz bazarında...

*Avropa Sabitləşdirmə Fondu 2013-cü ildə avrozonada vahid valyuta növü olan avronun dəyərini gücləndirmək və maliyyə aktivliyini artırmaq üçün qiymətli kağızların, istiqrazların emissiyasının artırılmasının vacibliyini bəyab edib. Fond Avropa İnkişaf Bankına və Avropa İttifaqının üzv ölkələrinə müraciət edərək bu prosesdə fəal iştirak etməyi tövsiyə edib. Qiymətli kağızların tədavülündə Asiya və digər ölkələrin iştirakının da vacibliyi bildirilir. Təşkilat Avropanın maliyyə və investisiya bazarında iştirak etmək üçün fond və investisiya reytinqləri sabit olan ölkələrin əhəmiyyətli şəkildə dividend əldə edəcəklərinə əminliyini ifadə edir.*

Son illərdə Azərbaycanın maliyyə gücünün neftdən daxil olan gəlirlər hesabına əhəmiyyətli dərəcədə artması, qeyri-neft sektorunda gedən sürətli inkişaf, neft gəlirlərinin güclü və çoxşaxəli iqtisadiyyatın yaranmasına yönəldilməsi və digər sahələr üzrə irəliləyişlər əldə etməsi ölkəmizin qurumun tövsiyə etdiyi bütün indikatorlara cavab verdiyini göstərir.

Məlum olduğu kimi, Avropa Sabitləşdirmə Fondu səhm bazarında iştirak edən ölkənin iqtisadi, investisiya, maliyyə sabitliyinin dözümlü olmasını, iqtisadiyyatın inkişaf dinamikasının sabit artım templərini başlıca elementlər kimi qəbul edir. Qeyd etdiyimiz mühüm amillər Azərbaycanın avrozonanın maliyyə bazarına girməsi üçün əlverişli şəraitin və vaxtın yetişdiyini göstərir. Dünya bazarlarında qlobal iqtisadi məkanda gedən proseslərin sürətlənməsi artıq bir sıra ölkələri yenidən maliyyə və qiymətli kağızlar bazarına sərmayə qoymağa sövq edir. Daha doğrusu, böhran nəticəsində Avropanın iri maliyyə strukturlarında yaranmış boşluğu doldurmaq üçün hazırda rəqabət başlayıb. İnkişaf etməkdə olan dövlətlər öz maliyyə ehtiyatlarının bir qismini müxtəlif maliyyə alətləri formasında, xüsusilə də qiymətli kağız və istiqraz şəklində Avropanın kapital bazarlarına yönəltməyə başlayıb.

Azərbaycan da bu istiqamətdə fəal investisiya siyasəti yürütməkdədir və son illər maliyyə bazarlarının əhatə dairəsinin və qiymətli kağızların strukturunun genişlənməsi bu sahədə əlverişli imkanlar yaradır. Artıq respublikamızın bir çox iqtisadi strukturları tərəfindən buraxılan müxtəlif növ qiymətli kağızların emissiyasının uğurlu alınması da bunu şərtləndirir. Məsələn, hazırda Mərkəzi Bank tərəfindən emissiya olunan notlar, Maliyyə Nazirliyinin buraxdığı istiqrazlar, İpoteka Fondunun istiqrazları, eyni zamanda bankların və digər strukturların tədavül etdiyi avrobondlar, səhmlər dünya maliyyə sektorunda Azərbaycanın fəal iştirakına zəmin yaradır. Maliyyə Nazirliyi tərəfindən buraxılan istiqrazların, digər qiymətli kağızların, eləcə də Mərkəzi Bank tərəfindən buraxılan qısamüddətli notların indeksi son aylar dünya maliyyə resessiyaları fonunda möhkəmlənib, hətta bir qədər dəyərini artırıb.

Bütün bu amillər Azərbaycan şirkətlərinin, bank və dövlət strukturlarının Avropanın qiymətli kağızlar bazarına daxil olması üçün əla fürsət yaradır. Azərbaycan Avropanın səhm və istiqraz bazarına daxil olmaq üçün həm də ən iri maliyyə aləti sayılan avrobondları da buraxmağa tam hazırdır. Qeyd edək ki, ölkəmizin kifayət qədər iri maliyyə qurumları olan Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu və Beynəlxalq Bank Avropa bazarlarına öz sərmayələrini qoymaq fikrindədir. Hazırda Avropanın qiymətli kağızlar və istiqraz bazarlarında olan boşluq Azərbaycan şirkətlərini də bu cəlbedici sahəyə yaxınlaşdırır. Artıq Dövlət Neft Fondu 2013-cü ildə Avropada qiymətli kağızların alışı, istiqrazların emissiyası, avrobond buraxılışı ilə bağlı strateji plan həyata keçirəcəyini bəyan edib. Hazırda Avropanın qiymətli kağızlar bazarında avrobondlar ən dövriyyəli qiymətli kağız sayılır və bu sahəyə bütün iri holdinqlər sərmayə qoymağa maraq göstərirlər. Avrobondları çox hallarda avroistiqrazlar da adlandırırlar. Bu qiymətli kağız Avropada uzunmüddətli istiqrazların alınması zamanı borc öhdəlikləri kimi xüsusi çəkiyə malikdir. Avroistiqrazlar yüksək gəlirlilik, eləcə də maliyyə bazarlarında iri investora çevrilmək baxımından şirkətlər üçün xüsusi bir səhm kimi də səciyyələndirilir.

**E.CƏFƏRLİ**

# Özündən çox el qədrini bilənləri xatırlayın...

*Yanvarın 18-də Vergilər Nazirliyində 20 Yanvar faciəsinin 23-cü ildönümünə həsr olunmuş anım mərasimi keçirilmişdir*




Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə həlak olanların əziz xatirəsinə həsr olunan tədbirdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Anar İsgəndərov 20 Yanvar faciəsinin tarixi kökləri, tariximizin bu şanlı səhifəsinin ibrət dərsləri barədə mülahizələrini söyləmişdir. O, 20 Yanvarı ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq əməllərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli mövqeyinə qarşı hiddətlənən xalqımızın öz milli azadlığı, ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizəsinin zirvəsi kimi səciyyələndirmişdir.

Daha sonra tədbirdə Akademik Milli Dram Teatrının aktyorları - respublikamızın xalq artistləri Laləzar Mustafayeva və İlham Əsgərovun iştirakı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilmişdir.

**AYTƏN**

# Vergi əməkdaşları Şəhidlər xiyabanını ziyarət etmişlər

Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənərək paytaxt Bakının küçə və meydanlarında etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun yeridilməsi Azərbaycanda dəhşətli faciəyə gətirib çıxarmışdır. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar.

Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi M.Qorbaçov başda olmaqla, cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirmişdir.

Bu qanlı hadisələrdən illər keçməsinə baxmayaraq, xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar faciəsini ölkəmiz hər il Ümumxalq Hüzn Günü kimi geniş qeyd edir. Bu il yanvarın 20-də də şəhidlərimizin uyuduğu xiyaban on minlərlə insanın qürur nöqtəsinə çevrilmişdir. Vergilər Nazirliyinin kollektivi də Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət edərək Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsini ehtiramla yad etmiş, onların məzarı üstünə gül dəstələri düzmüşlər.



# Çevik və keyfiyyətli xidmət

*Yanvarın 15-dən 1 nömrəli «ASAN xidmət» Mərkəzi vətəndaşlara xidmət göstərməyə başladı*

**Əvvəli 3-cü səhifədə**

### Əhalinin bütün təbəqələri nəzərə alınmışdır

Mərkəzdə uşaq əyləncə guşəsi, tibb xidməti, internet-kafe, bank, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Binada əlil vətəndaşların xidmətlərdən rahat istifadə etmələri üçün də xüsusi şərait yaradılmışdır. Belə ki, bu kateqoriyadan olan insanların binada maneəsiz hərəkət etmələri üçün xüsusi arabalar alınmışdır. Bundan başqa, gözdən əlil vətəndaşlar üçün xüsusi cığırlar müəyyənləşdirilmiş, onların oxuya bilmələri üçün xüsusi hərflərlə yazılı lövhələr yerləşdirilmişdir. Mərkəzdə, həmçinin, vətəndaşların özünəxidmət üçün daim internetə açıq olan kompüterlər də fəaliyyət göstərir. İnsanlar sərbəst şəkildə kompüterlərdən istifadə edərək xidmətlər haqqında məlumat əldə edə bilərlər. Azad Cəfərli bildirir ki, Mərkəzdə vətəndaşlara ödənişli səyyar xidmətlərin göstərilməsi də nəzərdə tutulur. Lakin kənardan qulluğa və yardıma ehtiyacı olan əlillər və sağlamlıq imkanları məhdud olan uşaqlar üçün bu xidmət ödəniş aparılmadan həyata keçiriləcək.

### Digər dövlət qurumları: Vergilər Nazirliyi

Mərkəzdə müxtəlif dövlət orqanlarının 74 əməkdaşı fəaliyyət göstərir. Vergilər Nazirliyinin nümayəndəsi, Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin baş hüquqşünası Mətləb Musayevin sözlərinə görə, «ASAN xidmət» Mərkəzində vətəndaşlara Vergilər Nazirliyinin Kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı xidməti təqdim edilir. Bu xidmətlə bağlı müraciətlər daha çoxdur. Müraciətlərin bir hissəsi yazılı, bir hissəsi isə şifahi xarakter daşıyır. Vergi bəyannamələrinin tərtib olunması və göndərilməsi ilə maraqlananlar da az deyil, lakin Mərkəzdə bu xidmət nəzərdə tutulmadığından vətəndaşlar ətraflı təlimatlandırılıb düzgün ünvana - Vergilər Nazilriyinin müvafiq xidmətinə istiqamətləndirilir.

Yeri gəlmişkən, vergilər nazirinin əmri ilə nazirlik əməkdaşlarının «ASAN xidmət» mərkəzlərində fəaliyyətinin tənzimlənməsi ilə bağlı Qaydalar təsdiq edilmişdir. Qaydalar müraciətlərin qəbulunu, növlərini, baxılma müddətlərini, emalını, hazır sənədlərin təhvil verilməsi, xidmətlərin təşkili qaydalarını və iş rejimini müəyyənləşdirir. Kommersiya hüquqi şəxslərin ilkin qeydiyyatı haqqında müraciətə (o cümlədən qeyd olunan ərizənin qəbulu zamanı ƏDV-nin məqsədləri üçün qeydiyyat, elektron sənəd mübadiləsi barədə müqavilə bağlanması və bankda hesab açılması üçün müraciətlər) 3 gün, fiziki şəxslərin ilkin vergi uçotu üçün müraciətə isə 2 gün ərzində baxılır. «ASAN xidmət» mərkəzlərində qəbul edilən müraciətlərin emal olunmaq üçün aidiyyəti vergi orqanına təhvil verilməsi və həmin vergi orqanından emal edilmiş (hazırlanmış) sənədlərin təhvil alınması Qaydalarda göstərilmiş reyestrlərlə qapalı zərflərdə kuryer xidməti vasitəsi ilə həyata keçirilir.

«ASAN xidmət» mərkəzlərində hazır sənədlərin təhvil verilməsi növbəlilik prinsipi əsasında həyata keçirilir. Hazır sənədlər xüsusi kitaba imza etdirilməklə vergi ödəyicisinə (səlahiyyətli nümayəndəyə) təqdim edilməlidir.

Xidmət zamanı işçilərin həftəlik və gündəlik iş saatı normaları əmək qanunvericiliyinin tələblərinə əsasən müəyyən edilir. Rəsmi iş günü hesab edilməyən günlərdə (istirahət, bayram və s.) sənədlərin təhvil-təslimi, emalı aidiyyəti vergi orqanında təyin edilmiş növbətçi əməkdaşlar tərəfindən həyata keçirilir.

### İlk iş günündə...

«ASAN xidmət» Mərkəzinə daxil olan müraciətlərin əksəriyyəti şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, eləcə də sürücülük vəsiqələrinin dəyişdirilməsi ilə bağlı olub. Gün ərzində 256 nəfər müraciət edib. Onların təəssüratları ürəkaçandır:

***İradə Babayeva:*** Şəxsiyyət vəsiqəmin dəyişdirilməsi ilə bağlı «ASAN xidmət»ə müraciət etmişdim və 15 dəqiqə ərzində vəsiqəm hazır oldu. Bu xidmət işimizi yüngülləşdirməklə yanaşı, bizi əlavə vaxt və pul itkisindən azad edib...

***Natiq Əlibalayev:*** Burada çox qısa zamanda sürücülük vəsiqəmi dəyişdirə bildim. Çevik, operativ xidmət, xüsusən də gülərüz personal bir vətəndaş kimi məni də məmnun edir...

**QEYD:**

*«ASAN xidmət» Mərkəzi şənbə və bazar günləri də daxil olmaqla səhər saat 10.00-dan 20.00-a qədər fasiləsiz fəaliyyət göstərir.*

**Arzu İBRAHİMOVA**

# 20 Yanvar - *tariximizin qəhrəmanlıq səhifəsi...*

*Azərbaycan xalqı XX əsrin 90-cı illərində milli-azadlıq uğrunda mübarizəyə qalxaraq imperiya buxovlarından birdəfəlik azad olmaq üçün mücadiləyə başladı. Lakin xalqın bu şərəfli mübarizəsi qansız ötüşmədi...*

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyasının rəhbərliyi Azərbaycan xalqının mübarizə əzmini qırmaq üçün hərb maşınını işə salaraq bəşəriyyət tarixində ən dəhşətli faciələrdən birini törətdi. Əliyalın əhaliyə qarşı qabaqcadan planlaşdırılmış cinayət əməlləri nəticəsində 132 nəfər günahsız insan ən amansız formada öldürüldü, 744 insan yaralandı və yüzlərlə insan itkin düşdü.

Ümummilli liderimiz Heydər Əliyevin həmin dəhşətli günlərdə həyatını riskə qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirdiyi mətbuat konfransında dediyi kimi: «O, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildir. Bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır».

İmperiyanın yeritdiyi siyasətə qarşı etiraz səsini ucaltdığına görə SSRI rəhbərliyindən uzaqlaşdırılan və ev dustağı edilən Heydər Əliyev həmin günlərdə böyük təzyiqlərə məruz qalsa da, Azərbaycan xalqı və tarix qarşısında üzərinə düşən məsuliyyəti ləyaqətlə yerinə yetirdi, xalqla bir olduğunu nümayiş etdirdi. Faciədən bir gün sonra həyatı üçün hər an yarana biləcək təhlükələrdən qorxmadan Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi və hamının susmağa üstünlük verdiyi o anlarda faciənin törədilmə səbəblərini açıqladı, bütün rəsmi strukturların gizlətməyə çalışdığı ən dəhşətli faktları və məlumatları, eləcə də Qanlı Yanvar hadisələrinin günahkarlarının adlarını dünya ictimaiyyətinə catdırdı. İttifaq rəhbərlərinin və onların Azərbaycandakı əlaltılarının bu qanlı faciəni törətməkdə birbaşa məsuliyyət daşıdıqlarını göstərdi: «Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən M.S.Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərliyinin xalqa xəyanəti və cinayətinin nəticəsidir». Xalqımızın böyük oğlu Heydər Əliyev totalitar rejimin hələ yaşadığı, qılıncının dalının da, qabağının da kəsdiyi bir vaxtda cəsarətlə bildirdi ki, bu akt Azərbaycana qarşı cinayətdir, hərbi təcavüzdür və faciəyə siyasi qiymət verilməlidir.

Mətbuat konfransından sonra daha ciddi təzyiqlərə və təqiblərə məruz qalan böyük öndər Vətənə qayıtdı. Azərbaycanın faciə dəhşətlərini yaşadığı anlarda xalqı ilə birgə olmağı özünə mənəvi borc bilən ümummilli lider həmin dövrdə respublika rəhbərliyində olan qüvvələrin mərkəzi hakimiyyətin buyruqlarını yerinə yetirərək Heydər Əliyevin Bakıda qalmasına hər vəchlə maneçilik törətməsi səbəbindən Naxçıvana dönməyə və orada siyasi fəaliyyət göstərməyə məcbur oldu. Lakin Naxçıvanda olduğu müddətdə də qəlbinin həmişə xalqla döyündüyünü, həyatını öz xalqının xoşbəxt gələcəyinə həsr etdiyini Heydər Əliyev bir daha sübut etdi. Məhz 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verən ilk sənəd Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə qəbul edildi. 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi bu hadisəyə dəqiq siyasi-hüquqi qiymət verərək, faciənin təşkilatçılarını, icraçılarını açıq şəkildə göstərdi və 20 Yanvar faciəsini imperiya rəhbərləri tərəfindən Azərbaycan xalqının milli-azadlıq hərəkatını boğmaq cəhdi kimi qiymətləndirdi: «Yanvar faciələrinin səbəbkarlarının - istər İttifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz, eyni zamanda insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması kimi qiymətləndirir».

Təəssüf ki, sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra da başları hakimiyyət uğrunda mübarizəyə qarışmış Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü, ardıcıl iş ararmadılar.

20 Yanvar hadisələrinin əsl mahiyyəti yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə məhz onun təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı. 1994-cü il martın 29-da «1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında» adlı xüsusi qərar qəbul edildi və ilk dəfə respublika səviyyəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

Azərbaycan Prezidenti İlham Əliyev də 20 yanvarda dövlətimizin müstəqilliyi, suverenliyi, ərazi bütovlüyü və xoşbəxt gələcəyi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, şəhid ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm işlər görmüşdür. Dövlət başçısı İlham Əliyevin 19 yanvar 2006-cı il tarixli «20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında» fərmanı ilə şəhid ailələrinə dövlət qayğısı daha da artırıldı.

Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda, Vətən yolunda «Vətən sağ olsun» deyib canlarından keçən övladları bütün dünyaya sübut etdilər ki, Vətən torpağı müqəddəsdir, toxunulmazdır. Vətən torpağından pay olmaz, onu parçalamaq, yadlara vermək olmaz. Təsadüfi deyilməyib ki, heç nə yaddan çıxmır, heç kəs unudulmur. Vətən yolunda şəhidlik zirvəsinə yüksələnlər də heç vaxt unudulmur, yaddaşlardan silinmir, çünki şəhidlər ölməzdir. Bu ölməzlik həm də dövlətimizin müstəqilliyində, xalqımızın birliyində yaşayır.

Allah şəhidlərimizə rəhmət eləsin!

**Anar ƏLİYEV**

# Sadələşdirilmiş vergi bəyannaməsi

## Hüquqi şəxslər üzrə 1№-li Əlavənin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi

Qulu Soltanov,
sərbəst auditor

**Əvvəli ötən sayımızda**

***Sətir 1.4.2 «Sair debitor borcları»* «dövr ərzində daxil olmuşdur» sütununda*:*** 62 №-li hesabın debet dövriyyəsi üzrə illik yekun məbləği əks etdirilir. ƏDV ödəyiciləri bu dövriyyəyə ƏDV-ni də əlavə etməklə hesabat ilində müştərilərindən almalı olduqları hesablanmış məbləğləri göstərməlidirlər. Məsələn, DB62 - KR46, DT46 - KT68 ikili yazılışları üzrə dövriyyələr.

**«təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda:** *Təqdim edilmişdir:* boş saxlanılır. *Silinmişdir:* 62№-li hesabların kredit dövriyyəsi üzrə illik yekun məbləği əks etdirilir (silinən ümidsiz debitor borc məbləğlərdən başqa). Məsələn, DB 50, 51, 52, 60, 76 - KR 62 ikili yazılışları üzrə dövriyyələr. *Ləğv edilmişdir:* əvvəlki və cari hesabat dövründə hesablanmış debitor məbləğlər kimi 62№-li hesabın debetində əks etdirilən və sonradan alınması mümkün olmayan ümidsiz debitor borc məbləğləri kimi silinən (62№-li hesabın kreditində uçota alınan) dövriyyələr göstərilir. Məsələn, DB 80, 88 - KR 62 ikili yazılışları.

Əlavənin 1.4.1-ci sətrində 62№-li hesabın məlumatlarının əks etdirilməsinə aydınlıq gətirək. Sətrin doldurulması üçün sətrin adındakı «debitor borclar» ifadəsinə əsaslanmaq lazımdır. Mühasibat uçotunda debitor borc kimi qalığa məruz qalan hesablaşmalar əsasən 61, 62, 68, 69, 73, 76 №-li hesablar ola bilər. Lakin Əlavənin 1.4.1-ci sətrində 62№-li «Alıcılar və sifarişçilərlə hesablaşmalar» hesabının dövriyyələrinin əks etdirilməsi daha düzgündür. Çünki 62№-li hesab mütləq olaraq yalnız debet qalığı ilə yekunlaşan və vergi ödəyicisinin mütləq olaraq alacaqlarını (yaranan debitor borclarını) və alacaqlarına görə əldə etdiklərini göstərən mühasibat hesabıdır. Digər 68, 69, 73, 76 №-li hesablar isə əsasən kredit qalığı ilə yekunlaşan hesablardı və bəzi hallarda debet qalığı ilə yekunlaşır. 61№-li hesab da debet qalığı ilə yekunlaşan hesab olsa da, bu hesabda vergi ödəyicisinin mütləq qaydada alacağı məbləğlər əks etdirilmir. Bu hesabın mahiyyəti malsatanlara və podratçılara ödəniləcək kreditor məbləğlərini zəmanətə götürməkdir (avans ödəməklə gələcəkdə yaranacaq keridtor bocların təminatlılığını təmin etməkdir) və xarakterinə görə «debitor borc haqqında məlumatlar» anlamına uyğun gəlmir. Deməli, Əlavənin 1.4.1-ci sətrində göstərilməli ən uyğun məlumatlar 62№-li hesabda əks etdirilən məbləğlərdir.

Ticarət fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərində müştərilərdən alınacaq məbləğlərə bəzən uçotda DB 51 - KR 46 ikili yazılışı verirlər. Bu cür ikili yazılışı o halda vemək uyğun olar ki, vergi ödəyicisi gələcəkdə pulu ödənilmək şərti ilə (nisyə) mal satışı həyata keçirmir. Belə olan halda, Əlavənin 1.4.2-ci sətrində 46 №-li hesabın müştərilərdən daxil olan vəsaitləri (mübadilələr nəzərə alınmaqla) uçota alan hesablar üzrə müxabirləşən dövriyyələri nəzərə alınır (məsələn, DB 50, 51, 52, 60, 76 - KR 46) və bü sətir üzrə Əlavənin hər iki tərəfinə eyni məbləğlər yazılmaqla qalıq «sıfır» göstərilir.

Bəzən geri qaytarılan satış dövriyyələri də olur, buna DB 46 - KR 62 və ya storno ilə DB 62 - KR 46 ikili yazılışları verilir. Belə məbləğlər eyni hesabat dövründə baş vermişdirsə, hesabat dövrünün bəyannaməsinin Əlavəsində hər iki tərəfin dövriyyəsindən çıxarılır. Belə məbləğlər əvvəlki hesabat dövrünün Əlavəsində «dövr ərzində daxil olmuşdur» sütununda göstərilən məbləğ olduğu halda, cari Əlavənin «təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda «ləğv edilmişdir» sətri üzrə göstərilməlidir.

**Bir misal.** Vergi ödəyicisinin hesabat ilinin əvvəlinə 62№-li hesab üzrə debitor qalığı 15000 manatdır və hesabat ilində əməliyyatlar aşağıdakı kimi olmuşdur *(bax: cədvəl 1)*.

Bu əməliyyatlar üzrə məbləğlər dövriyyə cədvəlində aşağıdakı kimi olacaqdır *(bax: cədvəl 2)*.

Belə halda həmin göstəricilər bəyannamənin Əlavəsində aşağıdakı kimi əks etdirilməlidir *(bax: cədvəl 3)*.

**Davamı növbəti sayımızda**

Cədvəl 1

| Əməliyyatların məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Hesabat dövründə müştərilərə hazır məhsul satılmışdır | 62 | 46 | 50000 |
| Bank hesabına hesabat dövründəki satışlara görə pul daxil olub | 51 | 62 | 40000 |
| Bank hesabına əvvəlki hesabat dövründəki satışlar üzrə pul daxil olub | 51 | 62 | 13000 |
| Əvvəlki hesabat dövründən yaranan debitor borcların bir hissəsi ümidsiz debitor borc kimi hesab edilib | 88 | 62 | 2000 |

Cədvəl 2

| Hes. №-si | Hesabın adı | 01 yanvar 2012-ci il tarixə qalıq | | 2012-ci ildə dövriyyə | | 01 yanvar 2013-cü il tarixə qalıq | |
|---|---|---|---|---|---|---|---|
| | | DEBET | KREDİT | DEBET | KREDİT | DEBET | KREDİT |
| 62 | Alıcılar və sifarişçilərlə hesablaşmalar | 15000 | | 50000 | 55000 | 10000 | |
| | **Cəmi pul hesabları üzrə** | **15000** | | **50000** | **55000** | **10000** | |

Cədvəl 3

| Göstəricilər | Dövr ərzində daxil olmuşdur, manatla | Təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir, manatla | Hesabat dövrünün sonuna, manatla |
|---|---|---|---|
| 1.4.2 Sair debitor borcları | 50000 | Təqdim edilmişdir:<br>Silinmişdir: 53000<br>Ləğv edilmişdir: 2000 | 10000 |

| YANVAR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | **15** | 16 | 17 | 18 | 19 | **20** |
| **21** | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | **31** | | | |

### vergi taqvimi

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**
15 yanvar - «(1)», «(2)»
21 yanvar - «1-1», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11»
31 yanvar - «10.1»

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləği keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələri aparılmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim edilməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üçün hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxslər hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Audit

# Əşyaların yenidən qiymətləndirilməsi... və yaranan məbləğlərin uçota təsirinin auditi

Mülkiyyətçilərə təqdim olunan maliyyə hesabatlarında müəssisələrin balansında olan əşyaların hesabat dövrünün sonuna qalan dəyəri (balans dəyəri) ədalətli dəyərlə açıqlanmalıdır. Bunun vergitutmaya təsirinin olacağından çəkinən təsərrüfat subyektlərinin artıq narahatçılığına son qoyuldu. «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli Qanununa əsasən, Vergi Məcəlləsinə edilmiş dəyişikliklər və əlavələr nəticəsində mühasibat uçotu və vergi uçotu arasında yaranan fərqlərin baş verməsi bir daha aydınlaşır.

Məsələn, əlavə və dəyişikliklərdə əsas vəsait anlayışına daxil olan aktivlərin minimum dəyərinin 500 manat müəyyənləşdirilməsi və əsas vəsaitlərin qiymətləndirilməsindən yaranan məbləğlərin vergi hesablanan dövriyyəyə aid edilməməsi uzunmüddətli aktivlərin mühasibat uçotu və vergi uçotunda kəskin fərqlərin olmasından xəbər verir. Artıq əsas vəsaitlərin yenidən qiymətləndirilməsindən yaranan əlavə məbləğlərin vergitutmaya təsirinə tam aydınlıq gətirildi.

Vergi Məcəlləsinin 97.3.3-cü maddəsinə edilmiş əlavəyə əsasən, fiziki şəxsin mülkiyyətində olan əsas vəsaitlərin yenidən qiymətləndirilməsindən yaranan artım məbləğ vergitutma məqsədləri üçün nəzərə alınan gəlirlərə aid deyildir. Vergi Məcəlləsinə əlavə edilmiş 104.5-ci maddəyə görə, əsas vəsaitlərin yenidən qiymətləndirilməsindən yaranan artım (yenidən qiymətləndirilmə nəticəsində yaranan müsbət fərq) mənfəət vergisinin vergitutma obyekti deyildir. 143-cü maddəyə edilmiş dəyişikliyə görə isə əsas vəsaitlərin dəyərinə onların yenidən qiymətləndirilməsindən yaranan artım (yenidən qiymətləndirilmə nəticəsində yaranan müsbət fərq) daxil edilmir.

Deməli, vergi ödəyiciləri MMUS-a uyğun olaraq balansında (mülkiyyətində) olan əsas vəsaitlərin (torpaq, tikili və avadanlıqların, investisiya məqsədli daşınmaz əmlakın, bioloji aktivlərin) yenidən qiymətləndirilməsi nəticəsində yaranan müsbət məbləğləri vergitutma məqsədləri üçün nəzərə almayacaqlar. Təsərrüfat subyektləri bu dəyişikliklər nəticəsində əsas vəsaitlərin vergi uçotu məqsədləri üçün hesablanan balans dəyəri ilə mühasibat uçotu məqsədləri üçün hesablanan balans dəyəri arasında fərqlərin olmasını bar daha qəbul etməlidirlər.

Audit zamanı aşkar edilir ki, səhmdar cəmiyyətlərinin, xüsusən də özəlləşdirmə nəticəsində yeni yaradılan açıq səhmdar cəmiyyətlərinin, həmçinin uzun müddət fəaliyyət göstərən hüquqi şəxslərin balansında (mülkiyyətində) həm özəlləşdirmə dövründən əvvəlki vaxtlardan, yəni keçmiş dövrlərdən hazırkı dövrədək saxlanılan və ya istifadə edilən əsas vəsaitləri mövcuddur. Lakin həmin səhmdar cəmiyyətlərinin (hüquqi şəxslərin) əksəriyyətində uçot, əsasən, vergitutma məqsədləri üçün aparıldığına görə, həmin aktivlərin yenidən qiymətləndirilməsi, demək olar ki, həyata keçirilməmişdir və ya həyata keçirilmir. Əslində, təsərrüfat subyektləri qanunla mülkiyyətində olan əsas vəsaitlərin yenidən qiymətləndirilməsi üçün əsas yarandığı halda yenidən qiymətləndirməni həyata keçirməli və maliyyə hesabatlarında bunu açıqlamaqla təqdim etməlidir. Məhz Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər yenidən qiymətləndirməni həyata keçirməyən təsərrüfat subyektlərinə bir daha stimul verir ki, çəkinmədən mülkiyyətində olan əsas vəsaitləri MMUS-ların tələblərinə uyğun olaraq yenidən qiymətləndirsinlər və bununla da mühasibat uçotunda əsas vəsaitlərin balans dəyərinə müvafiq dəyişiklikləri etsinlər.

Yenidən qiymətləndirmə nəticəsində əsas vəsaitlərin balans dəyəri azala da bilər. Vergi Məcəlləsində əsas vəsaitlərin yenidən qiymətləndirilməsi nəticəsində yaranan mənfi məbləğlərin vergitutmaya təsiri barədə konkret müddəa olmasa da, azalan məbləğ vergi tutulan mənfəətin (gəlirin) hesablanması üçün nəzərə alınmamalıdır.

Maraqlı məqam vergi ödəyicisinin mülkiyyətində olan əsas vəsait hesab edilməyən digər əşyaların, yəni ehiyatların (xammal və materialların, azqiymətli əşyaların, malların, hazır məhsulların, bitməmiş istehsalın) yenidən qiymətləndirilməsi nəticəsində yaranan müsbət və ya mənfi məbləğlərin vergitutmaya təsirinin olub-olmamasıdır. Əslində, əmtəə-material ehtiyatlarının qısamüddətli aktiv kimi qəbul edildiyini və növbəti hesabat dövründə (yaxın 12 ay ərzində) istifadə olunacağını nəzərə alsaq, qısa dövrdə qiymət artımına və ya qiymətdən düşməyə məruz qalma ehtimalı çox azdır. Bu ehtimalı nəzərə alsaq əmtəə-material ehtiyatlarının qiymətləndirilməsindən yaranan müsbət və ya mənfi məbləğlər barədə Vergi Məcəlləsində konkret müddəanın verilməsi o qədər də əhəmiyyətli və işlək olmayacaqdır. Təsərrüfat subyektləri qanunla mülkiyyətində olan əmtəə-material ehtiyatlarının yenidən qiymətləndirilməsi üçün əsas yarandığı halda yenidən qiymətləndirməni həyata keçirmişdirsə, yaranan müsbət və ya mənfi məbləğlərin vergitutmaya təsiri Vergi Məcəlləsində nəzərdə tutulmadığına görə, həmin məbləğlər vergilərin hesablanmasında nəzərə alınmamalıdır.

Bütün yuxarıda göstərilənləri nəzərə alaraq, audit zamanı təsərrüfat subyektlərinin maliyyə hesabatlarında şəffaflığın təmin edilməsi məqsədilə əsasən uzunmuddətli aktiv hesab edilən daşınar və daşınmaz əşyaların yoxlanılan hesabat dövrünün sonuna maliyyə hesabatlarında əks etdirilən qiymətlərinin ədalətliliyinə və bu barədə hesabatlarda qeydlərin olmasına diqqət yetirilməlidir.

beynəlxalq panoram

# Türkiyə vergi nəzarətini gücləndirir



Maliyyə Nazirliyi bunun sayəsində vergi gizlədilməsinə və qaçaqçılığına yol verən vergi ödəyicilərinə təxminən 8 milyard 750 milyon lirə (təxminən 4 mlrd. 950 mln. dollar) məbləğində maliyyə sanksiyası tətbiq etmişdir. Vergi nəzarəti tədbirlərində orta və böyük miqyaslı ödəyicilər diqqət mərkəzində olmuşdur. Bəyan edilməyən gəlirlər üzrə isə təxminən 4,5 milyard lirə məbləğində verginin gizlədilməsinin qarşısı alınmışdır. Maliyyə naziri Mehmet Şimşək əldə edilən rəqəmlərin rəhbərlik etdiyi qurumun həm qeydiyyatsız əməliyyatlara qarşı, həm də vergidənyayınma və qaçaqçılığına qarşı mübarizə çərçivəsində görülən tədbirlərin səmərəli nəticəsi olduğunu vurğulamışdır.

«Vergi nəzarəti idarəsinin 2013-cü il üzrə fəaliyyət planı»nın təfərrüatları da açıqlanmışdır. Həmin plana görə, vergi araşdırmaları və qeydiyyatsız əməliyyatlarla mübarizənin təsirliliyini artırmaq məqsədilə vergi orqanı əməkdaşları üçün ciddi bir maarifləndirmə proqramı həyata keçiriləcək. Bununla yanaşı, vergi araşdırmaları sahəsində beynəlxalq əməkdaşlığa da diqqət artırılacaq.

# ABŞ «maliyyə uçurumu» qarşısında?..

Bütün vətəndaşlar üçün vergilərin artırılması, vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyaları üzrə güzəştlərin ləğvi, yeni vergilərin tətbiqi - bütün bunlar iqtisadi böhranın kifayət qədər aydın və olduqca xarakterik əlamətlərini nümayiş etdirir. Bəzi ölkələr cəmiyyətin nəbzini əldə saxlamaq üçün «zənginlər üçün vergi» kimi qulağa xoş gələn müəyyən addımlar atmağa məcbur olurlar. «Zənginlər üçün vergi»nin maksimum artırılması nəzərdə tutulan Fransa cəmiyyətində vəziyyətin heç də normallaşmadığı bir zamanda ABŞ-da da mənfəət vergisinin dərəcələrinin artırılması qərarına gəlinmişdir. Planetimizin ən zəngin ölkəsinin maliyyə uçurumu ilə qarşı-qarşıya qalması artıq heç kimi təəccübləndirmir. 2012-ci ilin yayından bəri Amerika siyasətçilərinin əsas müzakirə mövzusu məhz yeni maliyyə böhranından hansı şəkildə qaçmağın mümkünlüyüdür. Yəni ölkə «fiskal böhran» baş verməkdən qurtuluşun yollarını axtarmaqdadır. Təxminən bir il əvvəli xatırlasaq, kredit dərəcələndirmə təşkilatı olan «Standard and Poor's» agentliyi ABŞ-ın kredit notunu tarixdə ilk dəfə 1 pillə aşağı: AAA-dan AA+ səviyyəsinə salmışdı və bu, dünya bazarında ciddi narahatlığa səbəb olmuşdu.

Vergi güzəştlərinin vaxtı artıq bitmişdir. «Maliyyə uçqunu» 1 yanvar 2013-cü ildə baş verməli idi. Sabiq Prezident Corc Buş və onun administrasiyası tərəfindən milli iqtisadiyyatın stimullaşdırılması üçün tətbiq olunan müxtəlif tədbirlər məhz həmin gün qüvvədən düşdü. Bu o deməkdir ki, fiziki və hüquqi şəxslərə tətbiq olunan vergi dərəcələri avtomatik olaraq yüksəlir, ölkədə vergi güzəştləri ləğv olunur. 2010-cu ildə vergi ödəyicilərinin bütün kateqoriyaları üçün vergi güzəştlərinin vaxtı iki il müddətinə uzadılmışdı və 2012-ci ilin son günündə həmin müddət də başa çatdı. Vergi dərəcələri azaldılmasa, 10 il əvvəlki səviyyəyə yüksələcək. Özü də təkcə gəlir vergisi deyil, həmçinin investisiyaya qoyulan vergilər, dividendlər və miras üçün də vergilər artacaq.

İndi dövlət xərclərini azaltmağın da zamanı çatıb. Artıq müdafiə xərclərinin 50 milyard dollar, təhsil və digər sosial xərclərin 600 milyard dollar azaldılması barədə qərarlar qüvvəyə minib. Bütün bu ixtisarlar bütün nazirliklərə, müdafiə sektoruna, işsizlər üçün müavinətlərə və pensiyalara da təsirsiz qalmayacaq. Bu addımların nəticəsi olaraq, 10 il ərzində büdcədə 1,2 trilyon dollar vəsaitə qənaət etmək mümkün olacaq. Rusiya ekspertlərinin rəyinə görə, ABŞ iqtisadiyyatının qeyri-sabit olduğu nəzərə alınsa, onun yenidən silkələnməyə məruz qalması və resessiyaya yuvarlanması təhlikəsi yarana bilər. Bunun dünya iqtisadiyyatı üçün nəticələrini isə proqnozlaşdırmaq çətin deyil...

Yeri gəlmişkən, ABŞ-da 2007-ci ildə qüvvəyə minmiş «İpoteka borcu üzrə bağışlama» (Mortgage Debt Forgivines) maddəsinin müddəti daha bir il uzadılmışdır. İpoteka krediti ilə ev alanların üzləşdikləri maddi itkini azaltmaq məqsədilə qəbul edilmiş bu maddə ev sahiblərinə bəzi vergi güzəştlərinin verilməsini əhatə edir. Yəni evini bankdan 150 min dollara alan şəxs iqtisadi böhrana görə həmin evi 90 min dollara satmağa məcbur olduğu halda, itirdiyi 60 min dolların vergisini banka ödəməkdən azad edilir. Əgər «İpoteka borcu üzrə bağışlama» maddəsinin müddəti uzadılmasaydı, ev sahibləri düşdükləri ziyanın məbləğinə görə də vergi ödəməli olacaqdılar. Bununla birlikdə, illik gəliri 110 min dollardan az olanlar da ipoteka sığortalarını (əgər varsa) vergiyə yönəldə biləcəklər. Həmçinin, 2012-ci ildə evinə 500 dollar dəyərindən artıq enerjiyə qənaət edən cihaz quraşdıranların da vergi ödəmələrində güzəşt olunacaq.

Müddəti daha 1 il uzadılmış «İpoteka borcu üzrə bağışlama» maddəsinin 1,3 milyard dollar vergi itkisi ilə nəticələndiyi bildirilir.

**«novoteka.ru» saytının materialları əsasında hazırladı:**
**İxtiyar QASIMOV**

# Dünyanın əmək bazarında nisbətlər dəyişir

İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı (İİƏT) 2013-2014-cü illərdə dünya ölkələrinin əmək bazarı, işçi qüvvəsi ilə bağlı yeni proqnozları açıqlayıb. Təşkilatın apardığı hesablamalara görə, iki il ərzində dünya dövlətlərinin əksəriyyətində iş yerlərinin yaradılması ilə bağlı problemlər yaranacaq, bağlanan iş yerlərinin fonunda bu sahədəki dinamika aşağı düşəcək və Avropa Birliyinə üzv ölkələrin bir çoxunda iş yerlərinin bağlanması tendensiyası davam edəcək. Borc böhranı Avropanın ən inkişaf etmiş ölkələrinin - Almaniya, İngiltərə və Fransanın iqtisadiyyatına ciddi təsir göstərdiyindən bu regionda əmək bazarına yeni daxil olanların sayının azalacağı gözlənilir. Qarşıdakı 2 ildə fəal işçi qüvvəsinin Almaniyada 186 min 357, İngiltərədə 398 min 41, Fransada isə 251 min 59 nəfər artacağı təxmin edilir ki, bu da son illərdə çox aşağı göstərici kimi xarakterizə olunur.

Avropa Birliyinin digər inkişaf etmiş və iqtisadi cəhətdən kifayət qədər sabit ölkələri sayılan Lüksemburq, Estoniya və Slovakiyada məşğulluğun dinamikasında ciddi artım gözlənilmir. Məsələn, Estoniyada 2 ildə yeni işçi sayının 3 min 890, Lüksemburqda 10 min 683, Slovakiyada isə 13 min 621 nəfər artması gözlənilir. Digər avrozona ölkələrində isə yeni iş yerlərinin açılması gözlənilmir, əksinə, mövcud iş yerlərinin ixtisar olunması nəzərdə tutulur. İslandiya, İrlandiya, Finlandiya, Portuqaliya, Sloveniya, İspaniya və Yunanıstanda istər dövlət, istərsə də özəl sektorda işçilərin ixtisarı və iqtisadi fəal əhalinin azalacağı proqnozlaşdırılır. Məsələn, Yunanıstanda 175 min 893, İspaniyada 111 min 674, Sloveniyada 19 min 391, Portuqaliyada 18 min 153, İrlandiyada isə 18 min 130 nəfər iş yerlərini itirəcək. Yeri gəlmişkən, Asiyanın iqtisadi güclərindən olan Yaponiya İİƏT ölkələri arasında işsizliyin səviyyəsinə görə əsas dövlətlərdən biri hesab olunur. İşsizlik bu ölkədə 2 il ərzində 300 min 500 adamın həyatına təsir göstərəcək.

İİƏT-in hesablamalarına görə, hal-hazırda 15 ölkəni əhatə edən avrozonada 159 milyon 635 min 665 adam əmək bazarının aktiv iştirakçısıdır. 2014-cü ilin sonunda isə bu bölgədə işləyənlərin sayı 160 milyon 8 min 638 nəfər təxmin edilir. Halbuki, böhrandan əvvəl bu regionda il arzində ən azı 3 milyon iş yeri yaradılırdı. Proqnozlarda Türkiyə ilə bağlı çox ümidverici məqamlara yer verilib. 2013 -2014-cü illərdə Türkiyədə daha 1 milyon 47 min 203 adam iş qüvvəsi bazarına qatılacaq. Avrozonada isə bu rəqəmin 372 min 973 nəfər olacağı güman edilir. Beləliklə, 15 avrozona ölkəsində 2 il ərzində birlikdə yaradılacaq iş yerlərinin sayı təkcə Türkiyədəkindən 3 dəfə az olacaq. Türkiyə məşğulluğun səviyyəsinə görə dünyanın Almaniya, İngiltərə, Fransa, Yaponiya, Cənubi Koreya və Kanada kimi iqtisadi nəhənglərini geridə qoyacaq.

Ümumilikdə, Türkiyə İİƏT-ə üzv dövlətlər arasında ABŞ və Meksikadan sonra məşğulluğu ən çox təmin edəcək 3-cü ölkə olacaq. Hazırda işləyənlərin sayı 155 milyon 50 min 167 nəfər olan ABŞ-da işçi qüvvəsi 2013-2014-cü illərdə daha 3 milyon 832 min 110 nəfər artacaq, Meksikada isə əmək bazarına 2 milyon 726 min 379 insan qatılacaq və bu ölkənin işçi qüvvəsinin ümumi sayı 2014-cü ilin sonunda 53 milyon 14 min 648-ə catacaq.

Azərbaycana gəldikdə isə 2013-2014-cü illər ərzində 150 mindən çox iş yerinin yaradılması nəzərdə tutulur. 2004-cü ildən bəri 1 milyon 200 min yeni iş yeri açılmış ölkəmizdə təkcə ötən il 200 minə yaxın insan işlə təmin edilmişdir.

**Elbrus CƏFƏRLİ**

| Ölkələr | 2012-ci il | 2013-cü il | 2014-cü il | 2013-2015-ci illərdə əmək bazarına daxil olacaq işçi qüvvəsi |
|---|---|---|---|---|
| ABŞ | 155.050.167 | 157.037.366 | 158.882.278 | 3.832.111 |
| Meksika | 50.288.269 | 51.671.196 | 53.014.648 | 2.726.379 |
| Türkiyə | 27.738.734 | 28.319.908 | 28.785.937 | 1.047.203 |
| Cənubi Koreya | 25.440.003 | 25.643.561 | 25.883.947 | 443.944 |
| İngiltərə | 32.025.891 | 32.230.116 | 32.423.932 | 398.041 |
| Kanada | 18.870.626 | 19.042.468 | 19.216.015 | 345.389 |
| Avstraliya | 12.135.703 | 12.283.642 | 12.457.382 | 321.679 |
| Fransa | 28.596.889 | 28.736.477 | 28.847.948 | 251.059 |
| Almaniya | 43.925.464 | 44.004.565 | 44.111.821 | 186.357 |
| İsrail | 3.613.508 | 3.716.464 | 3.798.227 | 184.719 |

# Avropa komissarı İsveçrəyə xəbərdarlıq etmişdir

Vergilər üzrə Avropa komissarı Alqirdas Semeta son müsahibələrinin birində demişdir ki, İsveçrənin öz vergi rejimlərini Avropa Birliyi (AB) normalarına uyğunlaşdırması üçün yarım il vaxtı qalmışdır, əks halda ayrı-ayrı ölkələr İsveçrəyə qarşı sanksiyalar tətbiq edə bilərlər.

Semeta qeyd etmişdir ki, Avropa dövlətləri İrlandiyanın AB Şurasına sədrliyi dövründə - 2013-cü ilin iyun ayına qədər vergi rejimləri barədə razılığa gəlmək niyyətindədirlər. Bundan sonra ölkələr birtərəfli qaydada İsveçrəyə qarşı qarşı qadağanedici tədbirlər görə biləcəklər. Hazırda Avropa hökumətləri yeddi vergi rejiminə (bunların hamısı müəssisələrə vergi qoyulması ilə bağlıdır) dəyişiklik olunması üçün İsveçrə ilə danışıqları davam etdirirlər.

İsveçrə hökuməti bank müştəriləri barədə məlumatların avtomatik mübadilə edilməsi sistemini Rubik sxemi adlandırılan sistemlə əvəz etməyə tərəfdardır. Rubik sxeminə əsasən, İsveçrə öz müştəriləri barədə məlumatları gizli saxlamaq, eyni zamanda, əcnəbi müştərilərin gəlirlərindən vergi tutub, həmin müştərilərin vətəninə göndərmək niyyətindədir. Avropa Komissiyasının mövqeyinə görə, İsveçrə üçün xüsusi şəraitin yaradılması açıq bazar münasibətlərində başqa ölkələrin rəqabət imkanlarına mənfi təsir göstərə bilər.

krossvord



**Yuxarıdan aşağı:**

1.Xanəndə, əməkdar artist; 2.U.Şekspirin «Qış nağılı»ndan personaj; 3.İt cinsi, fransız qoyun iti; 4.Tatarıstan Respublikasında şəhər; 5.Gürcülərin milli simli müsiqi aləti; 6.Dövrədə cərəyan şiddətini tənzimləyən cihaz; 7.Familiya ilə məna analogiyası olan təxəllüs; 12.Siyasi termin. Baxışlarda və dəyişikliklərdə kəskin mövqe; 13.Tanınmış rəqqas və rəqs müəlliminin soyadı (1957), Xəzər Universitetinin oğlanlardan ibarət rəqs ansamblının bədii rəhbəri; 15.Kəlbəcər rayonunda kənd; 16.XX əsrin ən görkəmli İran şairlərindən biri (1907-1941); 18.İncə məqam, çalar; 20.Əsəb sistemi ilə bağlı hüceyrə və sistemə aid olan mürəkkəb sözlərin başlanğıc hissəsi; 21.Tənəffüsü məhdudlaşdıran, öskürək və boğulmalara gətirib çıxaran ağciyər tənəffüs yollarının iltihabi-allergik xəstəliyi.

**Soldan sağa:**

1.Azərbaycanın qədim xalq nəfəsli musiqi aləti; 5.Akademik, SSRİ-nin Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının sədri; 8.Hər hansı tədbirin maliyyəşməsində köməklik göstərən hüquqi və ya fiziki şəxs; 9.Rusiyanın internet axtarış sistemi; 10.Azərbaycanın futbol klubu; 11.Qədim yunan filosofu Platonun atası; 12.Cənubi Niderland rəssamı, Barokko üslubunun nümayəndəsi (1577-1640); 14.Afrikanın zərb aləti; 17.Tacikistanın paytaxtı; 19.Tarixi Azərbaycan ərazisində ilk mərkəzləşdirilmiş dövlət; 22.Lüteran kilsəsi; 23.Bir sıra dövlətlər daxilində inzibati-ərazi vahidi; 24.Rusiya Federasiyasının Kareliya Respublikasından keçən cay; 25.Yaponiyanın Xonsü yarimadasında şəhər.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Samur; 2.Lanin; 3.Tottori; 4.Nərgiz; 5.Bravo; 6.Reqress; 7.Tintaya; 12.Dərbənd; 13.Rambler; 15.Versaçe; 16.Nokaut; 18.Rasim; 20.Barel; 21.Nodar *(Şaşıqoğlu)*.

**Soldan sağa:** 1.Salatın *(Əsgərova)*; 5.Barat *(Şəkinskaya)*; 8.Münster; 9.Arqon; 10.Ranço; 11.İpoteka; 12.Dərviş; 14.Avesta; 17.Romario; 19.Rubin; 22.Əylis; 23.Apatrid; 24.Darem; 25.Treyler.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# Səmti müəyyənetmə idmanı üzrə yeni xəritələr hazırlanıb




2012-ci il ölkə idmanın bir çox sahələrində olduğu kimi, Səmti müəyyənetmə idman növündə də əlamətdar hadisələrlə yadda qalıb. Ötən il bu idman növü üzrə bir çox yarışlar keçirilb ki, onların sırasında ən mühümlərindən açıq respublika çempionatını və ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş «Prezident Kuboku»nu qeyd etmək olar. Xaçmaz rayonunda 200-ə yaxın idmançının iştirak etdiyi yarışlar səmti müəyyənetmə idmanının kütləviləşdiyini və ona marağın artdığını təsdiq edib. Bu idman növünə marağın artması respublikanın bir çox regionlarında müvafiq yarışların keçirilməsinə səbəb olub. Artıq bu sahədə inkişaf tendensiyasını nəzərə alan Azərbaycan Səmti Müəyyən Etmə İdman Federasiyası tərəfindən yarışların intensivliyini təmin etmək məqsədilə doqquz yeni idman xəritəsi hazırlanıb.

Bu nailiyyətlərin əldə olunmasında, sözsüz ki, Səmti Müəyyən Etmə İdman Federasiyasının xidmətləri böyükdür. Federasiyanın prezidenti Mirəli Kazımov ötən il dekabrın 24-də «Buta Palace»da «İdman ili»nin yekunlarına həsr olunmuş tədbirdə karate üzrə «Prezident Kuboku» beynəlxalq turnirinin keçirilməsinə göstərilmiş diqqət və qayğıya görə Fəxri fərmanla təltif olunub.

2013-cü il yanvarın 13-də Səmti Müəyyən Etmə İdman Federasiyasının Şurası, Ukraynanın Azərbaycan Respublikasındakı səfirliyinin və Vergilər Nazirliyinin dəstəyi ilə bayram gecəsi təşkil edilib ki, bu da tanışlıq və ünsiyyət qurmaq baxımından geniş imkan kimi qiymətləndirilə bilər.

Ötən ilin ən mühüm hadisələrindən biri də federasiyanın Beynəlxalq Səmti Müəyyən Etmə İdman Federasiyasına üzv olmasıdır. Bundan başqa, səmti müəyyənetmə üzrə yarışların keçirilməsi üçün elektron qeydiyyat sisteminə dair avadanlığın (SMEİF) Azərbaycana gətirilməsi haqqında əldə olunmuş razılıq bu idman növü üzrə yarışların dünya standartlarına uyğun keçirilməsinə imkan yaradacaq.

Federasiya ilə Vergilər Nazirliyi arasında əldə olunmuş razılığa əsasən, nazirliyin Şamaxı şəhərində yerləşən Tədris Mərkəzində səmti müəyyənetmə üzrə idmançıların hazırlanması ilə bağlı elmi-praktiki məşğələlərin keçirilməsi planlaşdırılır.

Hazırda 12 təşkilatın daxil olduğu federasiyanın 2013-cü ilə dair tədbirlər planına uyğun olaraq, respublikamızın bir sıra təşkilatlarında, o cümlədən təhsil müəssisələri, idman cəmiyyətləri, nazirlik və hərbi strukturlar arasında müxtəlif yarışların keçirilməsi planlaşdırılır. Azərbaycan idmançılarının 2013-cü ilin sentyabr ayında Ukraynanın Ujqorod şəhərində səmti müəyyənetmə üzrə beynəlxalq yarışlarda iştirakı da nəzərdə tutulub.

# Lord Sebastyan Koe Azərbaycan idmanının səviyyəsini yüksək qiymətləndirib

*Azərbaycanda səfərdə olan Böyük Britaniya Milli Olimpiya Komitəsinin prezidenti, London Olimpiya Oyunlarının icraçı direktoru Lord Sebastyan Koe yanvarın 21-də Bakı Olimpiya İdman Kompleksində Beynəlxalq İdman Həyəcanı Proqramı çərçivəsində təşkil olunan məşq prosesini izləmişdir.*



Lord Sebastyan Koe Azərbaycan idmançılarının London Olimpiadasında iştirakını yüksək qiymətləndirmiş və respublikamızın bir idman ölkəsinə çevrildiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, Azərbaycan Beynəlxalq İdman Həyəcanı Proqramına qoşulan ən fəal ölkələrdən biridir və bu proqram vasitəsilə daha çox uşaq idmanla məşğul olur.

L.S.Koe ilk dəfə keçiriləcək Avropa Olimpiya Oyunlarının ölkəmizdə yüksək səviyyədə təşkil olunacağına ümid etdiyini bildirmiş, bu mötəbər turnirin keçiriləcəyi idman obyektlərindəki vəziyyəti yüksək qiymətləndirmişdir.

Sonra qonağa üzərində məşqdə iştirak edən uşaqların imzası həkk olunmuş top hədiyyə olunmuş və xatirə şəkli çəkdirilmişdir.

# Ölkənin 1 nömrəli qapıçısı «Bakı» klubunda...

Azərbaycan yığmasının əsas qapıçısı Kamran Ağayev «Xəzər Lənkəran»ın heyətindən kənarlaşdırılmışdır. Artıq futbolçunu heyətinə qatmağa hazırlaşan «Bakı» klubu K.Ağayevin transferi üçün lazım olan məbləği ödəmişdir. Komanda Türkiyənin Antalya şəhərində təlim-məşq toplanışını başa vurduqdan sonra qapıçı ilə rəsmi müqavilə imzalayacağı gözlənilir.

# Şahmatçılarımızın daha bir uğuru

İspaniyanın Sevilya şəhərində keçirilən şahmat üzrə 38-ci beynəlxalq turnir başa çatmışdır. Yarışda iştirak edən Azərbaycan şahmatçısı Azər Mirzəyev sonuncu turda hindistanlı Saptarşi Roy Çoudxuri ilə, digər idmançımız Bəhruz Rzayev isə İngiltərə təmsilçisi Styuard Haslingerle heç-heçə oynamışlar.

Turnirin nəticələrinə görə, hər iki idmançımız mümkün doqquz xaldan yeddisini toplamışlar. Əlavə göstəricilər nəzərə alınaraq A.Mirzəyev turniri ikinci yerdə başa vurmuş, B.Rzayev isə üçüncü pillədə qərarlaşmışdır. Qeyd edək ki, turnirin qalibi səkkiz xal toplamış Styuard Haslinger olmuşdur.

# İdmançılarımız Avropa çempionatında

Yanvarın 23-26-da Xorvatiyanın paytaxtı Zaqreb şəhərində fiqurlu konkisürmə üzrə Avropa çempionatı keçiriləcəkdir. Çempionatda Azərbaycanı Yuliya Zlobina - Aleksey Sitnikov cütlüyü təmsil edəcəkdir.

Yarışın ilk günü iştirakçılar qısa proqramla çıxış edəcəklər. İki gün sonra isə idmançılar şəxsi proqramlarını təqdim edəcəklər. Qeyd edək ki, ötən il Azərbaycan cütlüyü Avropa çempionatında 10-cu, dünya birinciliyində isə 17-ci olmuşdu.

mozaika

# Moskvada küçə sənətçiləri vergi ödəyəcəklər

tam ciddi

Şəhər hökuməti küçə musiqiçilərinin fərdi sahibkarlar kimi qeydiyyata alınmasını və onlardan vergi tutulmasını planlaşdırır. Rusiya paytaxtının küçələrində fəaliyyət göstərən musiqiçilər, rəssamlar, janqloyrlar, klounlar, məşhurların oxşarları - yoldan keçənləri pulla (bəzən də təmənnasız) əyləndirən sənətçilər şəhərdə fəaliyyət göstərdikləri məkan üzrə patent almalı olacaqlar. Hazırkı qanunvericiliyə görə, Moskva şəhərində patentin illik qiyməti 36 rubldan 180 min rubla qədərdir. Bu sənədi əldə etmək üçün əvvəlcə fərdi sahibkar kimi qeydiyyata düşmək tələb olunur. Sənətçilərin patent alması ideyası onların vergiləri əvvəlcədən ödəməli olmaları və sədələşdirilmiş vergidən azad edilmələri ilə izah olunur. Mütəxəssislər isə sahibkarlar üçün patent müəyyənləşdirilməsinin səmərəsiz yanaşma olduğunu iddia edirlər.

Moskva Şəhər Dumasının deputatları hələ keçən il küçə sənətçilərinə eyni nöqtədə bir saatdan artıq fəaliyyət göstərməyin qadağan edilməsi ideyasını da irəli sürmüşdülər.



# Sümük sınığı üçün yapışqan

İsveçin Kral Texnoloji İnstitutunun alimləri 14 il ərzində nadir yapışqanın hazırlanması üzərində çalışmışlar. Yapışqan sınan yerə çəkilir və haloid lampanın təsiri altında bərkidilir sümüklər bitişdikdə yapışqan orqanizm tərəfindən sorulur. Beləliklə, ən mürəkkəb sınıqlar olan fəqərə və kəllə sümüyünün sınıqlarını metal lövhələr qoyulmadan narkoz altında müalicə etmək mümkün olacaqdır.

Yeni metod həm əməliyyatın, həm də sağalmanın müddətini qısaldacaqdır. Əgər əvvəllər əməliyyat ən azı üç aya yaxın vaxt aparırdısa, yeni icad olunan yapışqan sayəsində xəstə 3 gündən sonra işə çıxa biləcəkdir. Yapışqan zəhərliliyə görə yoxlanıldıqdan dərhal sonra heyvanlar üzərində sınaqdan keçiriləcəkdir. Alimlər əmindirlər ki, əgər hər şey yaxşı olsa, artıq bu ildən belə əməliyyatların aparılması mümkün olacaq.

# Bilgə xaqan

özümüzü tanıyaq



Böyük Hun imperatorluğundan sonra Asiyada ikinci nəhəng türk dövləti Göytürk xaqanlığı olmuşdur. 552-ci ildən 745-ci ilə qədər mövcud olmuş göytürklər «türk» sözünü ilk dəfə rəsmi dövlət adı kimi qəbul etməklə böyük və şərəfli bir tarixi vəzifəni yerinə yetirmişlər. Şərqi Sibirdəki Yakutiya türkləri və Qərbdə Bulqar (oqur) türkləri istisna olmaqla, türk mənşəli bütün tayfalar Göytürk xaqanlığının hakimiyyəti altında birləşmişdilər. Tədqiqatçıların qənaətinə görə, xaqanlığın adındakı «göy» sözü türklərin islamdan önceki inancları ilə bağlıdır: türklər göyə - tanrıya sitayiş etdiklərinə (bu inancın əlamətləri indiyə qədər yaşayır) görə özlərinə göytürk adı götürmüşdülər. Beləliklə, göytürk - «göyə, tanrıya mənsub olan müqəddəs türk» mənası daşımaqdadır.

Göytürk xaqanlığının ən böyük tarixi xidməti budur ki, onların dövründə türklərin özlərinə məxsus əlifbası və yazı mədəniyyəti formalaşdı. Göytürklərdən yadigar qalmış «Orxon-Yenisey» abidələri ümumtürk tarixinin günümüzə qədər çatan ən qiymətli sərvətləri sayılır. Bunlardan biri də İkinci Şərqi Göktürk xaqanlığının başçısı olmuş Bilgə xaqan (kağan) abidəsidir. Bilgə xaqanın şərəfinə daş üzərində həkk olunmuş yazıda o, «Tengriteg tengride bolmuş Türk Bilge Kagan» (Tanrı kimi göydə qərar tutan türk Bilgə xaqan) adı ilə tərənnüm edilmişdir.

Bilgə xaqan 684-cü ildə anadan olmuş, 717-ci ildə hakimiyyət başına gəlmiş və ömrünün sonuna qədər Şərqi Göytürk dövlətinin başında dayanmışdır. O, hakimiyyətə gələn kimi öz dövrü üçün çox uzaqgörən qərarlar qəbul etmişdi. Müəllimi Tonyukuk onun baş vəziri idi. Olduqca təmkinli və uzaqgörən bir dövlət xadimi sayılan Tonyukukun məsləhəti ilə Bilgə xaqan və qardaşı Gül Təkin dövlətə qarşı qiyam qaldıran doqquz tatarlar tayfasının və oğuzların üzərinə qoşun yeritdi. Oğuzlar və doqquz tatarlar məğlub oldular və Bilgə xaqanın hökmranlığını qəbul etdilər. Az sonra ölkədə siyasi və iqtisadi islahatlar həyata keçirən Bilgə xaqan əhalinin maddi rifahının yüksəldilməsinə nail oldu. Bilgə xaqanın xarici siyasətində Çin həmişə diqqət mərkəzində idi. Tədricən gücünü artıran Bilgə xaqanın məğlubedilməz bir qüvvəyə çevrildiyini görən çinlilər ondan asılılığı qəbul etməyə məcbur olmuşdular. Çinlə bir sıra savaşlardan sonra Bilgə xaqanın imzadığı anlaşmaya əsasən, Çin imperatoru Bilgə xaqana hər il tonlarla ipək, qızıl və digər zinət əşyaları göndərir, onun hər əmrini dərhal yerinə yetirirdi. Həmin dövrdə Göytürk xaqanlığı həm siyasi, həm mədəni, həm də iqtisadi cəhətdən çox inkişaf etmişdi. Göytürk dövlətinin sərhədləri Çinin Şan-Tunq ovasından, İç Asiyada Karaşar bölgəsinə, şimalda Bayırku ərazisindən Ani çayı çevrəsi və Qərbi Dəmirqapıya qədər uzanırdı.

Bilgə xaqanın ən böyük arzularından biri millətini oturaq həyata keçirmək, türkləri şəhərlərdə məskunlaşdırmaq idi. Amma vəzir Tonyukuk buna qarşı çıxaraq bildirmişdi ki, türklər su və otlaq olan yerləri axtarırlar, ovçuluqla məşğuldurlar, döyüşçüdürlər. Sayca çinlilərin yüzdə biri qədər də deyillər. Türkləri ətrafı qapalı bir şəhərə toplayandan sonra Çinə bir dəfə məğlub olsaq, əbədilik onların dustağına çevrilərik...

Bilgə xaqan 734-cü ildə xəyanət nəticəsində öldü. Vəziri Tonyukuku, qardaşı Kül Tiqini itirən Bilgə xaqanı çinlilərlə əməkdaşlıq edən nazirlərindən biri - Buyruk Çor zəhərləyərək öldürdü.

**Müdriklər deyib ki...**

*«Nə qədər ki, mavi göy yerə enməyib, qara torpaq çökməyib, türkün millətini, elini, ulusunu heç kim dağıda bilməz».*

*Bilgə xaqan (684-714)*



# Hansı elektrik cihazı nə qədər enerji sərf edir?

məsləhət

Hər bir ailənin təbii qayğılarından biri də məişət cihazlarının işlətdiyi elektrik enerjisinin haqqının ödənilməsidir. İnsanların həyat şəraiti və rifahı yüksəldikcə kommunal-məişət xərcləri də artır. Araşdırmaya görə, kondisionerdən istifadə etməyən bir ailənin büdcəsindən elektrik sərfiyyatına görə soyuducu daha çox pul «yeyir»: 30%. Evin işıqlandırılmasına sərf olunan enerji 28%-lə ikinci sıranı tutur. Evdə sərf olunan enerjinin 10%-i elektrik təndirinin (duxovka), 10%-i televizorun, 10%-i paltaryuyan maşının, 4%-i ütünün, 3%-i tozsoranın, 2%-i saçqurutma cihazının (fen) payına düşür.

Mütəxəssislərin məsləhətinə görə, cihazların seçimində, ilk növbədə, zəruri ehtiyaclarımızı nəzərə almalı, onların istifadə olunduqları sahələrə və onlara qulluq edilməsinə diqqət yetirməliyik. Cihaz alarkən, qiyməti ilə yanaşı, ilk növbədə, onun elektrik işlətmə gücünü nəzərə almalıyıq. İstehsalçısı məlum olmayan, ixtisaslaşmış servisi və texniki dəstəyi olmayan cihazları almaqdan imtina etmək məsləhət görülür. Evdə istifadə olunan cihazları mütləq elektrikə qoşub elektrikdən ayıran düymələrlə yandırıb-söndürmək lazımdır. Çılğıraqlar üçün qənaətcil lampalara üstünlük verilməlidir. Evin dizaynında həm yaşayış sahəsinin işıqlandırılması, həm də qızdırılması baxımından güneş işığından mümkün qədər səmərəli istifadə olunmalıdır.

